## Bakıda 5-ci mərtəbədən yıxılan şəxs sağ qalıb



**Bakıda 5-ci mərtəbədən yıxılaraq birinci mərtəbədəki mənzilin artırmasının damına düşən şəxs sağ qalıb.**

Fövqəladə Hallar Nazirliyindən verilən məlumata görə, Bakı şəhərinin Xətai rayonunda 1 nəfər beşmərtəbəli yaşayış binasının beşinci mərtəbəsinin eyvanından düşərək birinci mərtəbəsindəki mənzilin artırmasının damında köməksiz vəziyyətdə qalıb.

FHN-nin Xüsusi Riskli Xilasetmə Xidmətinin müvafiq xilasetmə qüvvələri dərhal hadisənin baş verdiyi ünvana cəlb olunub. Xilasedicilər yaralı vəziyyətdə olan vətəndaşı müvafiq qaydada damdan düşürüb və hadisə yerinə çağırılan Təcili və Təxirəsalınmaz Tibbi Yardım Xidmətinin həkim briqadasına təhvil verərək xilas olunmasını təmin ediblər.

## Salyanda ər və arvad dəm qazından boğularaq ölüb



**Salyanda ər və arvad dəm qazından boğularaq ölüb.**

APA xəbər verir ki, hadisə Salyan rayonunun Qaraçala kəndində qeydə alınıb.

Həmin kəndin sakinləri olan 1963-cü il təvəllüdlü Əsgərov Əlişirin Daşqın oğlu və onun həyat yoldaşı, 1972-ci il təvəllüdlü Əsgərova Yaqut Təzəxan qızı dəm qazından zəhərləniblər.

Onlar Şirvan xəstəxanasına çatdırılsalar da, bir neçə dəqiqədən sonra keçiniblər.


❒ № 225 (5507), 2021-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 9 dekabr 2021-ci il (cümə axşamı)




## Kəlbəcərdə mövqelərimiz atəşə tutulub

### Ordumuz adekvat cavab tədbirləri görüb

**Dekabrın 8-i saat 14.35-dən 15.30-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Yuxarı Şorca yaşayış məntəqəsində yerləşən mövqelərindən Kəlbəcər rayonunun Zəylik yaşayış məntəqəsində yerləşən Azərbaycan Ordusunun mövqelərini atıcı silahlardan istifadə etməklə heç bir səbəb olmadan intensiv atəşə tutub.**

Müdafiə Nazirliyindən "Şərq"ə verilən məlumata görə, qarşı tərəfin susdurulması məqsədilə Azərbaycan Ordusunun bölmələri tərəfindən adekvat cavab tədbirləri görülüb.

Azərbaycan Ordusunun şəxsi heyəti və texnika baxımından itkisi yoxdur.

Əməliyyat şəraiti bölmələrimizin tam nəzarəti altındadır.



## Nazirlərin telefon danışığı baş tutub

### Azərbaycan və Türkiyə XİN rəhbərləri üçtərəfli bəyanatların icrasını müzakirə edib

**Dünən Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovun Türkiyənin xarici işlər naziri Mövlüd Çavuşoğlu ilə telefon danışığı baş tutub.**

Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsindən verilən xəbərə görə, nazirlər bölgədə mövcud olan son vəziyyət, o cümlədən üçtərəfli bəyanatların icrası ilə bağlı məsələləri müzakirə ediblər.

Bölgə ölkələrinin iştirakı ilə "3+3" formatında əməkdaşlıq platformasının həyata keçirilməsi üzrə fikir mübadiləsi aparılıb.

Nazirlər, həmçinin İslam Əməkdaşlıq Təşkilatının (İƏT) xarici işlər nazirlərinin Pakistanda keçirilməsi nəzərdə tutulan növbədənkənar görüşü ilə bağlı fikir mübadiləsi aparıblar.

Telefon danışığı zamanı tərəflər, qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə edilib.

## Azərbaycanın Büdcə Məcəlləsi hazırlanır

### Samir Şərifov bildirib ki, bu, müəyyən vaxt aparacaq



**Büdcə Məcəlləsinin hazırlanması üzərində iş gedir.**

Bunu maliyyə naziri Samir Şərifov Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin bugünkü iclasında "Büdcə sistemi haqqında" və "Dövlət borcu haqqında" qanunlara təklif edilən dəyişikliklərin müzakirəsi zamanı deyib.

S.Şərifov bildirib ki, millət vəkillərinin də tövsiyələrinə uyğun olaraq Büdcə Məcəlləsi hazırlanır və bu, müəyyən vaxt aparacaq.

"Hazırda isə Vətən müharibəsində qazanılan Zəfərin yaratdığı reallıqlar və müasir dövrün çağırışları kontekstində, o cümlədən mövcud qanunvericiliyə uyğun təklif olunan bu dəyişikliklərin qəbulu aktualdır", - deyə nazir qeyd edib.

# Kreml İrəvandan tələb edir





### Sərhədlərin müəyyənləşməsinə dərhal başlamaq lazımdır

**Rusiya xarici işlər naziri Sergey Lavrovla Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan arasında telefon danışığı olub.**

Bu barədə Rusiya XİN-in məlumatında bildirilib.

Telefon danışığında nazirlər ikitərəfli, regional və beynəlxalq gündəliyin aktual məsələlərini müzakirə ediblər.

Həmçinin, Azərbaycan, Ermənistan və Rusiya liderlərinin 26 noyabr 2021-ci il tarixli Soçi razılaşmalarının həyata keçirilməsinə xüsusi diqqət yetirilib.(apa)

S.Lavrov Ermənistan-Azərbaycan sərhədinin delimitasiyası üzrə işlərin mümkün qədər tez başlamasının, sonrakı mərhələdə demarkasiyanın təmin edilməsinin vacibliyini vurğulayıb.

Rusiyanın XİN başçısı Azərbaycan, Ermənistan və Rusiya baş nazirləri müavinlərinin həmsədrlik etdiyi üçtərəfli işçi qrupu çərçivəsində sazişin praktiki müstəviyə çevrilməsinin vacibliyini bildirib.



## Bu il cəmi iki siyasi partiya qeydə alınıb

**"Azərbaycanda hazırda 58 siyasi partiya var. Onlardan 7 siyasi partiya 2020-ci ildə, 2 siyasi partiya isə bu il qeydiyyata alınıb".**

APA-nın məlumatına görə, bunu Ədliyyə Nazirliyinin Qeyri-hökumət Təşkilatları ilə iş şöbəsinin rəisi Aslan Hacıyev bildirib.

Onun sözlərinə görə, ölkədə 3359 ictimai birlik, 211 fond, 73 həmkarlar ittifaqı, 224 mənzil mülkiyyətçiləri müştərək cəmiyyətləri var. Şöbə rəisi deyib ki, son 5 ildə vətəndaş cəmiyyətlərinə 900 milyon manatdan çox məbləğ 10 minə yaxın layihə üzrə ayrılıb.

## Ermənistanın təqdim etdiyi mina xəritəsi saxtadır?

**"Məlum olduğu kimi ötən həftə Ermənistan tərəfi Azərbaycan Respublikasının işğaldan azad olunan digər müəyyən ərazilərinin mina sahələrinin formulyarlarını da Azərbaycan tərəfinə təqdim edib.**

Mina sahələrinin formulyarlarında adətən ərazinin koordinatları, basdırılmış minaların növləri, sayları, ara məsafələri, basdırılma və gizlətmə qaydalarına dair məlumatlar qeyd olunur. Lakin bildirmək istərdim ki, təqdim edilmiş formulyarlarla ilkin tanışlıq onların etibarsız, yararsız və qeyri-dəqiq olması təəssüratını yaradır".

Bunu Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) İdarə Heyətinin sədri Vüqar Süleymanov deyib.

(səh.2)

### ANAMA rəhbəri: "İlkin tanışlıq onların etibarsız, yararsız və qeyri-dəqiq olması təəssüratını yaradır"



## Rayonlarda avtobuslar kartla ödənişə keçə bilər



**"MasterCard" Azərbaycanın bölgələrində ictimai nəqliyyatda nağdsız ödəniş imkanlarını genişləndirməyi planlaşdırır.**

Trend-in məlumatına görə, bunu "MasterCard"ın Azərbaycandakı nümayəndəsi Erdem Çakar dünən Bakıda keçirilən 5-ci Beynəlxalq bank forumunda çıxışı zamanı deyib.

"Azərbaycanda nağdsız ödənişlərin artımının drayverlərindən biri ictimai nəqliyyatda bank kartları vasitəsilə ödəniş sisteminin tətbiqi oldu. 2020-ci ildə Şamaxıda 25 avtobusda nağdsız ödənişlər üzrə pilot layihəni işə salmışıq. Bu gün Şamaxıda nəqliyyatda dörd mindən çox nağdsız ödəniş həyata keçirilir", - deyə o, bildirib.

*E.Çakar ümidvar olduğunu bildirib ki, yaxın zamanlarda Azərbaycanda açıq bankçılıq tətbiq olunacaq.*

"Bu model artıq Türkiyədə reallaşdırılıb və şübhə etmirəm ki, Azərbaycanda da bu hədəfə nail olacağıq", - E.Çakar deyib.

## Yoluxma və ölüm sayı azalıb

### Daha 1 210 nəfər koronavirusa yoluxub, 15 nəfər ölüb

**Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 1210 yeni yoluxma faktı qeydə alınıb, 1853 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 15 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 599 713 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 569 238 nəfər müalicə olunaraq sağalıb, 8019 nəfər vəfat edib, aktiv xəstə sayı 22 456 nəfərdir.

*Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 12 033, ötən müddət ərzində isə ümumilikdə 5 633 054 test aparılıb.*



## Saakaşvilinin tələbi yerinə yetirildi

### Ona televizordan istifadə üçün icazə verilib

(səh.2)



## Polad Bülbüloğlu Fransa səfirini onun xahişi ilə qəbul edib

### Diplomatlar Soçidə keçirilmiş üçtərəfli görüşün nəticələrini müzakirə ediblər

(səh.4)



# Ermənistanın təqdim etdiyi mina xəritəsi saxtadır?

ANAMA rəhbəri: "İlkin tanışlıq onların etibarsız, yararsız və qeyri-dəqiq olması təəssüratını yaradır"

**"Məlum olduğu kimi ötən həftə Ermənistan tərəfi Azərbaycan Respublikasının işğaldan azad olunan digər müəyyən ərazilərinin mina sahələrinin formulyarlarını da Azərbaycan tərəfinə təqdim edib.**

Mina sahələrinin formulyarlarında adətən ərazinin koordinatları, basdırılmış minaların növləri, sayları, ara məsafələri, basdırılma və gizlətmə qaydalarına dair məlumatlar qeyd olunur. Lakin bildirmək istərdim ki, təqdim edilmiş formulyarlarla ilkin tanışlıq onların etibarsız, yararsız və qeyri-dəqiq olması təəssüratını yaradır".

Bunu Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) İdarə Heyətinin sədri Vüqar Süleymanov deyib.

"Məlum olduğu kimi, Ermənistan tərəfi müvafiq beynəlxalq məhkəmə işləri çərçivəsində məsuliyyətdən yayınmaq məqsədi ilə bütün mina sahələrini əhatə edən formulyarların verildiyi iddiası ilə çıxış edir. Ancaq Ermənistan tərəfindən təqdim edilmiş formulyarların işğaldan azad edilmiş bütün əraziləri tam şəkildə əhatə etməsi ilə bağlı da ciddi narahatlığımız mövcuddur.

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi və Azərbaycan Respublikasının Müdafiə Nazirliyi tərəfindən formulyarlar üzərində təhlil və emal işlərinə artıq başlanılıb. Formulyarların təhlil edilməsindən sonra məlumatlar xəritələr üzərinə köçürülərək, müvafiq ərazidə uyğunluğu yoxlanılacaq.

Qeyd edək ki, Ermənistan tərəfindən Ağdam, Füzuli və Zəngilan rayonları üzrə öncə verilmiş mina sahələri üzrə məlumatlarının dəqiqliyi 25% təşkil edir.

Təqdim olunan formulyarlar hərtərəfli şəkildə təhlil olunduqdan sonra onların nə dərəcədə dəqiqliyi və hansı əraziləri əhatə etdiyi barədə ictimaiyyətə əlavə olaraq məlumat veriləcək", - deyə ANAMA rəhbəri qeyd edib.

# Türkiyə yeni yol xəritəsinə başladı

Ərdoğan: "Millətimizdən bizə etimad etməsini və səbirli olmasını diləyirik"



**Türkiyə Qətərlə indiyədək 84 müqavilə bağlayıb və bu iki ölkə arasındakı əməkdaşlığın səviyyəsini daha da yüksəldib.**

APA-nın yerli bürosunun xəbərinə görə, bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Nazirlər Kabinetinin növbəti iclasından sonrakı açıqlamasında bildirib.

Ərdoğa deyib ki, Türkiyə ilə Birləşmiş Ərəb Əmirlikəri arasında başlanan yeni mərhələ əməkdaşlığın hər iki ölkənin iqtisadiyyatına müsbət təsir göstərəcəyinə ümid edir: "Türkiyənin qurtuluşunu qlobal mənfətə hədəflənməsində deyil, sərmayə yatırımı və məşğuliyyətdə görürük. Hədəfimiz sərmayə yatırımı ilə məşğulluq, istehsalat, ixracat və böyüməni daha da irəliyə aparmaqdır".

Türkiyənin yeni yol xəritəsinə başladığını deyən Ərdoğan xalqa müraciətlə "Millətimizdən bizə etimad etməsini və səbirli olmasını diləyirik", deyə bildirib.

Türkiyə prezidenti bankda, yaxud özündə xarici valyutası olanları ölkədəki yeni iqtisadi siyasətin yaratdığı fürsətləri dəyərləndirməyə və sərmayə qoyuluşundan çəkinməməyə dəvət edib.



## Saakaşvilinin tələbi yerinə yetirildi

Ona televizordan istifadə üçün icazə verilib

**"Mixeil Saakaşvilinin sərt etirazından sonra Penitensiar Xidmət geri çəkildi və Saakaşvili hazırda müalicəsini davam etdirir".**

24News.ge xəbər verir ki, bu sözləri Mixeil Saakaşvilinin vəkili Dmitri Sacaqlişvili, onunla görüşdükdən sonra deyib.

Onun sözlərinə görə, dünən Mixeil Saakaşvilinin palatasında olan televizor söndürülüb. O, tibbi xidmətdən imtina edəcəyini bildirdikdən sonra televizor yenidən bərpa edilib:

"Penitensiar müəssisənin rəsmiləri Saakaşviliyə həbsxanada tibbi ləvazimatı sındırdığına görə onun ziyarətçiləri qəbul edə bilməyəcəyi və televizordan istifadə hüququnun məhdudlaşdırıldığını bildiriblər. Təbii ki, Mixeil Saakaşvilinin buna çox sərt reaksiyası olub və onlar bundan sonra palatanı tərk ediblər. Palatadan çıxdıqdan təxminən saat yarım sonra sabiq prezidentin televizoru söndürülüb, buna görə də dünən Mixeil Saakaşvilinin çox sərt və ədalətli etirazı oldu və bundan sonra onun televizoru bərpa olunub. Əslində, penitensiar xidmətin Saakaşvilinin sərt etirazından sonra geri çəkildiyini gördük", - deyə Sacaqlişvili bildirib.

# General Ali Hərbi Məktəbin şəxsi heyəti ilə görüşüb

Kərim Vəliyev kursantların nəzəri və praktiki biliklərinin artırılması üçün keçirilən dərs prosesinin gedişatını yoxlayıb

**Müdafiə nazirinin tapşırığına əsasən Müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində olub.**



Müdafiə Nazirliyindən "Şərq"ə verilən məlumata görə, əvvəlcə ümummilli lider Heydər Əliyevin məktəbin ərazisindəki abidəsi önünə gül dəstələri qoyularaq xatirəsi hörmət və ehtiramla anılıb.

Kursantların sosial-məişət şəraiti və təlim-tədris prosesi ilə maraqlanan Baş Qərargah rəisinə məruzə olunub ki, Hərbi Məktəbdə dərslər müasir metodlar tətbiq olunmaqla tədris olunur. Bildirilib ki, kursantların hərbi ixtisaslara və peşə bacarıqlarına yiyələnməsi məktəbin əsas fəaliyyət istiqamətlərindən biridir.

General-polkovnik K.Vəliyev sinif otaqlarında və təlim sahəsində kursantların nəzəri və praktiki biliklərinin artırılması üçün keçirilən dərs prosesinin gedişatını yoxlayıb. Sonra Hərbi Məktəbin klubunda məktəbin professor və müəllim heyəti ilə görüş keçirilib. Baş Qərargah rəisi çıxış edərək Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazanılan Qələbədə Ali Hərbi Məktəbin yetirmələrinin xidmətlərini xüsusi qeyd edib, Azərbaycan Ordusunun gələcəkdə daha da güclü olması üçün bugünkü kursantların rolunun mühüm əhəmiyyət kəsb etdiyini bildirib.

Baş Qərargah rəisi kursant heyətinin qayğıları ilə maraqlandıqdan sonra Müdafiə naziri general-polkovnik Zakir Həsənovun müvafiq tapşırıqlarını aidiyyəti üzrə vəzifəli şəxslərə çatdırıb.

Sonda kursantlarla birgə nahar edilib.

**İsmayıl**

## İran və Ermənistan rəsmiləri Mehridə görüşüb

**Ermənistanın Dövlət Gəlirlər Komitəsinin sədri Rüstəm Badasyan dekabrın 8-də Meğri gömrük məntəqəsinin bölməsində İranın Gömrük Xidmətinin rəhbəri Mehdi Mirşərəfi ilə görüşüb.**

"Report" "News.am"a istinadən xəbər verir ki, bu barədə Ermənistanın Dövlət Gəlirlər Komitəsinin mətbuat xidməti məlumat yayıb.

Bildirilib ki, tərəflər iki ölkə arasında xidmətin yaxşılaşdırılması məsələlərini müzakirə ediblər. Onlar qaçaqmalçılığa qarşı mübarizənin səmərəliliyini artırmaq məqsədilə mümkün informasiya mübadiləsindən də danışıblar.

## Büdcə qaydasının yeni təkmilləşdirilmiş variantı təklif olunur

**2020-ci ildə pandemiya ilə əlaqədar qanunla icrası 2022-ci ilə qədər dayandırılan büdcə qaydasının tətbiqinin bərpası nəzərdə tutulur. Büdcə qaydasının yeni təkmilləşdirilmiş variantı təklif olunub.**

Bunu maliyyə naziri Samir Şərifov Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında "Büdcə sistemi haqqında" və "Dövlət borcu haqqında" qanunlara təklif edilən dəyişikliklərin müzakirəsi zamanı deyib.

Naziri qeyd edib ki, "Büdcə sistemi haqqında" qanunda olan anlayışlara, deputatlar, o cümlədən Hesablama Palatası tərəfindən qaldırılan bir sıra məsələlərə də yenidən baxılıb, sənəd yeni redaktədə dəqiqləşdirilib.

O qeyd edib ki, "Büdcə sistemi haqqında" qanunda edilən dəyişikliklərə uyğun olaraq "Dövlət borcu haqqında" qanuna da dəyişikliklər təklif olunurş Burada əsasən dövlət borcu və zəmanəti üzrə öhdəliklərin Təminat Fondu ilə bağlı məsələlər öz əksini tapıb.



## Terrorçuların gizləndikləri yaşayış məntəqəsinə həmlə...

Xüsusi təyinatlılarla taktiki-xüsusi təlim keçirilib

**Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlıları ilə taktiki-xüsusi təlim keçirilib. Müdafiə nazirliyindən "Şərq"ə verilən məlumata görə, Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlıları ilə "Yaşayış məntəqələrində antiterror əməliyyatlarının aparılması" mövzusunda taktiki-xüsusi təlim keçirilib.**

"Naxçıvan Qarnizonu Qoşunlarının 2021-ci tədris ilinə uzlaşma planı"na əsasən keçirilən təlimdə xüsusi təyinatlı qruplara dinc əhali arasında təxribat törətməyə hazırlaşan şərti düşmənin terror qruplaşmasının zərərsizləşdirilməsi tapşırığı verilib.

Tapşırığı almış xüsusi təyinatlı qruplar zirehli avtomobillərlə və helikopterlərin dəstəyi ilə terrorçuların gizləndikləri yaşayış məntəqəsinə həmlə ediblər.

Basqın zamanı yaralanan hərbi qulluqçuların təhlükəsiz şəkildə təxliyyəsi həyata keçirilib.

Xüsusi təyinatlı bölmələrin terrorla mübarizə vərdişlərinin təkmilləşdirildiyi və real döyüş şəraitinə maksimum yaxınlaşdırılmış şərtlərlə keçirilən təlimdə yaxın təmasla və müxtəlif silah nümunələri ilə döyüş elementləri yerinə yetirilib.

Düşmənin diversiya-təxribat fəaliyyətlərinin qarşısını alan xüsusi təyinatlılarımız təlimdə qarşıya qoyulmuş məqsədlərə nail olublar.

Əlahiddə Ümumqoşun Ordu komandanı, general-polkovnik Kərəm Mustafayevin və Türkiyə Silahlı Qüvvələri mənsublarının izlədikləri təlimin sonunda şəxsi heyətin yaşayış məntəqələrində döyüş əməliyyatlarının aparılması bacarıqları yüksək qiymətləndirilib, təlimdə iştirak edən hərbi qulluqçulara qiymətli hədiyyələr təqdim edilib.

# Sərhəddə atəş səsləri gəlir

Narkoticarətin arxasında siyasi dairələr durur

**İran-Azərbaycan sərhədində növbəti dəfə insident baş verib. Dekbarın 7-də Yardımlı rayonunun Daşkənd kəndi yaxınlığında Dövlət Sərhəd Xidmətinin zastavasının xidməti ərazisində 2 nəfər naməlum şəxs Azərbaycana qanunsuz keçməyə cəhd göstərib. Sərhəd zastavasının "dayan" əmrinə məhəl qoymayan qaçaqmalçılar naryada qarşı odlu silahdan atəş açıblar.**



Əllərindəki 2 ədəd bağlamanı ataraq hadisə yerindən qaçmağa çalışan şəxslərdən biri sərhədçilərimiz tərəfindən zərərsizləşdirilib. Hadisə yerinə baxış zamanı 2 ədəd bağlamada 4 min 270 ədəd "Marlboro", "Kent", "More" markalı siqaret qutusunun olması müəyyən edilib. Hadisə barədə İran tərəfi məlumatlandırılıb və DSX-nin vəzifəli zabitləri zastavaya ezam olunublar. Dəfələrlə vurğulandığı kimi bu sahədə problem yaşadığımız yeganə sərhəd İran-Azərbaycan sərhədidir. Müəyyən müddətdən bir cənub qonşumuzla sərhəddə insident yaşanır, hətta ölüm hadisələri də baş verir. Dəfələrlə İran tərəfinə bununla bağlı müraciət olunsa da, Tehran hökuməti ciddi addım atmır. Sanki Azərbaycanla sərhəd qəsdən nəzarətsiz buraxılır. Hətta qaçaqmalçıların, narkoticarətin arxasında müəyyən siyasi dairələrin durduğu da iddia edilir.

"İran tərəfi qəsdən və bilərəkdən narkotik maddələrin, qaçaqmalçıların Azərbaycana keçidinə imkan yaradır"

**İranla sərhəddə mütəmadi yaşanan problemləri "Şərq"ə təhlil edən politoloq Məhəmməd Əsədullazadə də hesab edir ki, İran tərəfi qəsdən və bilərəkdən narkotik maddələrin, qaçaqmalçıların Azərbaycana keçidinə imkan yaradır. Analitikin fikrincə, İranın yüksək siyasi şəxsləri narkoticarətin arxasında dururlar:** "İllərdir İranla sərhəddə eyni problemlərin təkrar-təkrar yaşanması bununla bağlıdır. Tehran hökuməti bu məqamdan yeri gəldikcə Azərbaycana qarşı təzyiq vasitəsi kimi də istifadə edir. Müharibə və İranla kəskin münasibətlər yaşandığı günlərdə kilolarla narkotik maddələri və digər məhsulları Azərbaycana keçirməyə cəhd göstərdilər. Hətta silahlı toqquşmalar da yaşandı. İndi də bu cür halların şahidi oluruq. İran əsasən, Göytəpə və Füzuli istiqamətində qanunsuz gediş-gəlişlərə imkan yaradır. Məqsəd ölkəmizdən narkotrafik kimi istifadə etmək, eyni zamanda təxribat törətməkdir. İranla münasibətlər normallaşsa da, müxtəlif istiqamətdə razılaşmalar olsa da, Tehran hökuməti sərhəd məsələsində manipulyasiya siyasətindən əl çəkmək istəmir. Görünür, İranda bunu tələb edən müəyyən dairələr var və bu məsələdə onların hökmu keçir".

**İsmayıl Qocayev**



# Ermənistan belə gözləmirdi

## Azərbaycan beynəlxalq hüquq müstəvisində də qalibiyyətini təsdiqlədi

İsmayıl Qocayev

**Birləşmiş Millətlər Təşkilatının ən ali ədliyyə orqanı olan Beynəlxalq Ədalət Məhkəməsi Ermənistanın Azərbaycana qarşı 3 iddiasını təmin etməyib. Məhkəmə İrəvan tərəfinin "Müharibə məhbuslarının" dərhal geri qaytarılması, "Hərbi Qənimətlər Parkının bağlanması və Azərbaycan tərəfindən müharibə cinayətlərinin araşdırılmasına dair iddialarını əsassız sayıb.**

Ermənistanın iddialarla bağlı sübutlar təqdim edə bilmədiyi açıqlanıb. Bununla yanaşı, məhkəmə rəsmi İrəvandan azərbaycanlılara qarşı irqi ədavətin, düşmənçiliyin körüklənməsinin qarşısını almağı tələb edib. Məlumat üçün deyək ki, Ermənistan tərəfi Beynəlxalq Ədalət Məhkəməsində Azərbaycana qarşı qələbə qazanmaq üçün çoxsaylı manevrlər etmişdi. Məsələn, proses ərəfəsində minalanmış digər ərazilərlə bağlı xəritələri Azərbaycana təhvil vermişdi. Məhz məhkəmənin qərarından çəkindiyi üçün erməni tərəfi xəritələri əvvəlcədən qaytarmışdı. Amma bu və digər aldadıcı manevrlər alınmadı. Beynəlxalq Ədalət Məhkəməsi Ermənistanın əsas tələblərini geri çevirdi. Əvəzində Ermənistan üzərinə öhdəlik qoyuldu. Məhkəmə Ermənistanda etnik zəmində zorakı çağırışlar edən qruplaşmalar və fərdi şəxslərə qarşı Ermənistan dövlətinin təcili tədbirlər görülməsinə dair qərar verdi. Şübhəsiz, ermənilərin iddiasının təmin olunmaması Azərbaycan tərəfinin vaxtında və əsaslandırılmış şəkildə sübut-dəlilləri məhkəməyə təqdim etməsindən qaynaqlanır.

Azərbaycanın xarici işlər nazirinin müavini Elnur Məmmədov deyib ki, Ermənistan Beynəlxalq Ədalət Məhkəməsində Azərbaycana qarşı siyasi xalq qazanmağa nail ola bilmədi və vəsatətləri rədd edildi. Nazir müavini bildirib ki, Azərbaycanda saxlanılan bütün şəxslərə humanist yanaşma sərgilənib. Onlar mütəmadi tibbi müayinələrdən keçiblər. Beynəlxalq qurumların nümayəndələri ilə görüşlərə icazə verilib, təhlükəsiz şəraitdə saxlanılıblar. Ona görə də qarşı tərəfin bu iddiası rədd edildi. Ermənistan son aylarda Hərbi Qənimətlər Parkının erməni millətinə qarşı etnik nifrətin təzahürü olduğunu iddia edib. Bəzi hallarda müxtəlif səviyyələrdə qərəzli bəyanatların qəbuluna nail olub. Azərbaycan buna sırf hüquqi prizmadan yanaşıb, Beynəlxalq Məhkəmənin qərarını gözləyib. Məhkəmədə parkın mahiyyəti, məqsədi ətraflı izah edilib. Nəticədə məhkəmə Ermənistanın bu vəsatətini də qəbul etməyib. Ermənilər uğursuzluğa düçar olublar".

> "Ermənistanın Beynəlxalq Ədalət Məhkəməsinə bəslədiyi ümidləri və planları boşa çıxdı"

XİN rəsmisi əlavə edib ki, beynəlxalq məhkəmələrdə Azərbaycan həqiqətlərinin sübut edilməsinə çalışılacaq: "Bundan sonrakı mərhələdə qərarların qəbulunu daha uzun müddət ərzində gözləyəcəyik və işlər görəcəyik. Azərbaycanın mövqeyi hər zaman olduğu kimi beynəlxalq hüquqa əsaslanır. Azərbaycan həqiqətlərinin beynəlxalq məhkəmələrdə sübut edilməsi istiqamətində səylərimizi əsirgəməyəcəyik". E.Məmmədov vurğulayıb ki, Azərbaycan tərəfi Ermənistana qarşı bir sıra konvensiyalar üzrə, xüsusilə ətraf mühitə vurulmuş ziyan, ekoloji və təbii sərvətlərin talan edilməsi ilə bağlı növbəti il şikayətlər qaldırmağa hazırlaşır: "Gələn il iki konkret istiqamət üzrə şikayət veriləcək. Bunlardan biri ətraf mühitə vurulmuş ziyanın miqyası ilə bağlı olacaq. Təbii ki, mövcud bəzi konvensiyalar çərçivəsində həmin ərazilərdə ətraf mühitə vurulmuş ziyanla bağlı məsələnin qaldırılması planlaşdırılır. Digər məsələ enerji resursları ilə bağlı olacaq. İşğaldan azad edilmiş ərazilərdə enerji resurslarından Ermənistanın qanunsuz istifadə etməsi və istismar faktları toplanır və bununla bağlı iddia qaldırılmasına hazırlaşırıq".

**Siyasi şərhçi Elçin Mirzəbəyli hesab edir ki, məhkəmənin Ermənistanda etnik zəmində zorakı çağırışlar edən qruplaşmalara qarşı dövlətin təcili tədbirlər görülməsinə dair qərarı beynəlxalq müstəvidə rəsmi İrəvana və revanşçı qüvvələrə verilən ən önəmli mesajdır.** Analitikə görə, bu qərar Azərbaycan torpaqlarının işğal edilməsi, soyqırım və etnik təmizləmə aktlarının həyata keçirilməsi, misli görünməmiş vandalizm aktlarının əsas səbəbinin Ermənistandakı ultramillətçilərin aqressiv əhval-ruhiyyəsindən qaynaqlandığını ifadə edir: "Qərar Beynəlxalq Ədalət Məhkəməsi tərəfindən bütün dünyaya erməni millətçiliyinin nə qədər təhlükəli olduğu barədə xəbərdarlığı kimi də qiymətləndirilə bilər. Beynəlxalq Ədalət Məhkəməsinin mina xəritələrinin qaytarılması barədə qərar verməməsinin başlıca səbəbi rəsmi İrəvanın bir neçə gün öncə bu xəritələri Azərbaycana təhvil verməsi ilə bağlıdır. Şübhəsiz ki, Ermənistan yalnız məhkəmənin qərarından çəkindiyi üçün xəritələri Azərbaycana verib. Rəsmi İrəvanın "humanizm" prinsiplərindən çıxış edərək, mina xəritələrini Azərbaycana təhvil verdiyini düşünmək, sözün bütün mənalarında sadəlövhlük olardı. Beləliklə, Ermənistanın Beynəlxalq Ədalət Məhkəməsinə bəslədiyi ümidlər və təbii ki, bu ümidlərdən doğan planları da boşa çıxdı. Manipulyasiya üçün yer qalmadı. Ermənistanın iddialarının təmin edilməməsinin əsas səbəbi, istisnasız olaraq, Azərbaycan tərəfinin nümayiş etdirdiyi çeviklik və peşəkarlıqdır. Azərbaycan döyüş meydanında olduğu kimi hüquq müstəvisində də Ermənistanı məğlub etdi".



# Müzakirə aparılıb

## ABŞ investorları işğaldan azad edilən ərazilərin bərpasına qoşula bilər

**İqtisadiyyat naziri Mikayıl Cabbarov ABŞ-ın Azərbaycandakı səfiri Örl Litzenbergerlə görüşüb.**

Nazir bu barədə"Twitter" hesabına yazıb.

O bildirib ki, görüşdə ikitərəfli iqtisadi əməkdaşlığın mövcud vəziyyəti nəzərdən keçirilib.

"Amerikalı investorların Azərbaycanda fəaliyyətinin genişləndirilməsi potensialı və işğaldan azad edilən ərazilərin bərpasında iştirakı barədə müzakirələr aparılıb", nazir əlavə edib.

# AKP və CHP-li deputatlar yumruq davasına çıxdılar

## Münaqişə ilə əlaqədar iclasa fasilə verilib



**Türkiyə Böyük Millət Məclisində Daxili İşlər Nazirliyinin büdcəsinin müzakirələri zamanı deputatlar arasında dava düşüb.**

Trend-in məlumatına görə, insident Cümhuriyyət Xalq Partiyasının (CHP) deputatı Erkan Aydının çıxışı zamanı baş verib.

Çıxışı zamanı daxili işlər naziri Süleyman Soylu onu saxtakar adlandırıb. Yaranan mübahisə hakim Ədalət və İnkişaf Partiyasının (AKP) deputatları ilə CHP deputatları arasında yumruq davasına çevrilib.

*Münaqişə ilə əlaqədar iclasa fasilə verilib.*

# Xəstələr haqlıdır...

## Şikayət varsa, mütləq araşdırılmalıdır



### Şəkərli diabet xəstələrinin dərmanlarla təminatında ciddi problemlər var

Məlahət Rzayeva

**Ölkədə şəkərli diabet xəstələrinin dərmanlarla təminatında ciddi problemlər var. "Trend" xəbər verir ki, bunu Azərbaycan Diabet Cəmiyyətinin sədri Möminat Ömərova deyib. Onun sözlərinə görə, hər gün bölgələrdən bununla bağlı cəmiyyətə çoxlu sayda şikayətlər daxil olur.**

"Xəstələr son dövrlərdə dərmanların sayının azaldılmasından gileylənirlər. Şəkərli diabetlə mübarizə üzrə 2 cür insulin var: qısamüddətli və uzunmüddətli. Xəstə bunların hər ikisini almalıdır. Amma deyirlər ki, bunlardan birini seçməlisiniz. Belə bir şey ola bilməz. Sonda bu, fəsadların yaranmasına gətirib çıxaracaq və bunun xərcini də yenə dövlət çəkməli olacaq. Çatdırılmada da müəyyən problemlər yaşanır və xəstələr insulini bəzi hallarda vaxtında ala bilmirlər. Nəhayət, ən böyük problem keyfiyyətli insulinlərin keyfiyyətsiz insulinlərlə əvəz olunmasıdır", - deyə M.Ömərova qeyd edib. Səhiyyə Nazirliyindən məsələyə aydınlıq gətirilib. Qurumdan verilən məlumata görə, şəkər dərmanları Nazirlər Kabinetinin müvafiq qərarına əsasən Səhiyyə Nazirliyinin İnnovasiya və Təchizat Mərkəzi tərəfindən xəstə sayına uyğun olaraq alınır və Tibbi Ərazi Bölmələrinin İdarəetmə Birliyinin tabeliyində olan tibb müəssisələrinə təqdim edilir. "Dərman preparatlarının xəstələrə paylanması bu müəssisələr tərəfindən həyata keçirilir. Əlavə olaraq bildiririk ki, Səhiyyə Nazirliyi tərəfindən yeni hazırlanmış proqram layihəsində şəkərli diabetdən əziyyət çəkən xəstələrə verilən dərmanların adambaşına gündəlik 40 vahid əvəzinə 60 vahidə çatdırılması təklif edilib. Səhiyyə Nazirliyinin İnnovasiya və Təchizat Mərkəzi tərəfindən verilən dərman preparatları Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzi tərəfindən yoxlanılaraq sertifikat əldə edildən sonra vətəndaşların istifadəsi üçün tibb müəssisələrinə paylanılır", - nazirlik qeyd edib.

TƏBİB-dən də "Trend"ə bildirilib ki, şəkərli diabet xəstəsinə insulin təyini Nazirlər Kabinetinin müvafiq qərarına əsasən tənzimlənir. Qərarla hər bir xəstə üçün vahid norma müəyyənləşib. "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13 may 2005 ci il tarixli 87 saylı qərarına əsasən hər bir şəkərli diabet xəstəsinə sutkalıq 40 vahid insulin yazılmalıdır. Bu analoq insulinlərdən ayda 4 qələm, digər insulinlərdən isə ayda 1 qələm düşür. Adi insulinləri isə xəstələr aya 1000 vahid, yəni ayda 1 ədəd, 5 aydan bir isə 2 ədəd yəni, 6000 vahid ala bilər. (40 vahid 30 gün =1200 vahid ?5 aya = 6000 vahid=5 flakon)", - deyə məlumatda qeyd olunub. Qeyd edək ki, son məlumatlara görə, ölkədə qeydiyyata alınan şəkərli diabet xəstələrinin sayı 283 min nəfərdir. Dünyada isə şəkərli diabetdən əziyyət çəkənlər 537 milyon nəfər təşkil edir.

> "İnsulin itə bilməz. Ya dərman kifayət qədər alınmır, ya da paylanmasında problem yaranır"

**Məsələylə bağlı "Şərq"ə açıqlamasında Azərbaycan Dövlət Tibb Universitetinin professoru, tibb elmləri doktoru Adil Qeybulla qeyd etdi ki, şikayət varsa, mütləq araşdırılmalıdır:**

- Şəkərli diabet xəstələrinin müalicəsi, dərman təminatı ilə bağlı dövlət proqramı var. İcbari Tibbi Sığortayadək də bu paket fəaliyyət göstərib. Diabet xəstələrinin sayı, ünvanları qeydiyyata alınır, orda pulsuz dərman təchizatı ilə bağlı da konkret göstərişlər var, şəkər ölçən aparatla da xəstələr təmin edilməlidir. Bir müddət diabet xəstələrinin insulinlə təmin edilməsində problemlər yarandı, amma sonra problem aradan qaldırıldı. Hazırda vəziyyət necədir, dəqiq deyə bilmərəm. Amma şikayət varsa, araşdırılmalıdır. İnsulin itə bilməz. Ya dərman kifayət qədər alınmır, ya da paylanmasında problem yaranır. Paylanan dərmanların uçotu aparılmalıdır, bilinməlidir ki, nə qədər xəstəyə lazım olan dozada dərman paylanıb. Görünür, müəyyən nöqsanlar var ki, xəstələr narazılıq edir.

**Rusiya Müdafiə Nazirliyinin nümayəndə heyəti sülhməramlıların sabiq komandanı, general Rüstəm Muradovun rəhbərliyi ilə İrəvana səfər edib. Ermənistan Müdafiə Nazirliyi məlumatı əvvəlcə təsdiqləsə də, bir müddət sonra təkzib edib.**

Məlumdur ki, R.Muradovun sülhməramlı kontingentin rəhbərliyindən ayrıldıqdan sonra yeganə "işi" Azərbaycanın saxladığı erməni hərbçiləri Ermənistana daşımaqdır. Sonuncu erməni hərbçilərlə mina xəritələrinin mübadiləsi ötən həftə baş tutub. Bu da Muradovun İrəvana başqa məqsədlə getdiyi ehtimalını gücləndirir. Erməni mənbələr İrəvana gələn rus təyyarəsində Azərbaycan-Ermənistan sərhədinin delimitasiya-demarkasiya prosesində iştirak edəcək hərbçilərin olduğunu yazırlar. İddialara görə, prosesdə Rusiya tərəfindən iştirak edəcək hərbçilərə Muradov rəhbərlik edəcək və sərhədin müəyyənləşməsi prosesi bu həftə başlanacaq.

**Siyasi şərhçi Asif Nərimanlı "Şərq"ə açıqlamasında bildirib ki, bunu Ermənistan mediasının növbəti iddiası hesab etmək olar.** Lakin müəyyən məqamlar məsələyə diqqəti artırır. Analitik vurğulayıb ki, Muradovun rəhbərlik etdiyi nümayəndə heyətinin İrəvana getdiyini təkzib edən ciddi arqument yoxdur: "Ermənistan MN də təkzibi təsdiq etdikdən sonra verib və əlavə şübhələr yaradır. Digər yandan Rusiyanın Brüssel görüşünə qədər sərhəd razılaşması prosesi sıfır nöqtəsindən tərpətmək istədiyi istisna deyil. Soçidə kommunikasiyanın qrafiki ilə bağlı razılaşmanı pozan Ermənistan Avropa masasında dəstək əldə edə bilsə, sərhəd razılaşmasına da eyni münasibəti sərgiləyə bilər. Bu riskləri nəzərə alan Moskva Brüssel görüşünə qədər sərhəd razılaşmasında ilk praktiki addımın atılmasına nail olmaq istəyir. Paşinyanın ötən həftə partiyasının deputatları ilə qapalı görüşdə sərhədin delimitasiya-demarkasiyası üzrə razılaşmanı müzakirə etdiyinə dair informasiyalar da bu kontekstdə diqqət çəkir. Bu amillər Rusiya nümayəndə heyətinin İrəvana səfərinin sərhədlə bağlı olduğu fikrini gücləndirir. Soçi razılaşmasına əsasən, Rusiya sərhədin delimitasiyası prosesində birbaşa iştirak edəcək, demarkasiya prosesində isə nəzarətçi olacaq".



# Rus hərbçilər İrəvana "iş" dalınca gedib

Moskva Brüssel görüşünə qədər sərhəd razılaşmasında ilk praktiki addımın atılmasına nail olmaq istəyir

İsmayıl Qocayev

# Bir narkotik istifadəçisi il ərzində azı 2-4 nəfəri yoldan çıxara bilir

**Baş direktor:**

"Adamlar bir dəfə əhvallarını qaldırmaq üçün bu zərərli maddədən istifadə edərək ondan asılı vəziyyətə düşürlər"

**"Narkotik maddələrdə fiziki asılılıq əlaməti ürəkbulanma, halsızlıq, şiddətli ağrılardır. Opiat qrupundan olan narkotik növlərindən istifadə edənlərdə daha ağır fiziki asılılıq müşahidə edilir. Onlarda bu fiziki asılılıq çox ağır keçir. Bu qrupdan olan narkotik maddələri qəbul edən şəxslərdə psixoloji asılılıq da şiddətli olur."**

Respublika Narkoloji Mərkəzinin baş direktoru Orxan Cəfərov dünən canlı yayımda Sputnik Azərbaycan-ın suallarını cavablayarkən belə deyib. O qeyd edib ki, son dövrlərdə cinayət hadisələrinin artmasına da müxtəlif narkotik maddələrdən istifadənin təsiri var.



O.Cəfərovun sözlərinə görə, bir dəfə narkotik qəbul edən şəxs asılı hesab edilir. Narkomanlar yalnız ilk 2-3 həftədə narkotikdən həzz alır, sonradan isə ağrılardan xilas olmaq üçün bu vasitələri qəbul edirlər.

Mərkəz rəhbəri bildirir ki, sağalmaq üçün bəzi nüanslara diqqət yetirmək lazımdır:

"Öncə müalicəyə başlayan şəxsdə ətrafdakılara inam olmalıdır və bu inamı formalaşdırmaq lazımdır. Bundan başqa, adam narkotikdən asılı olduğunu etiraf etməlidir ki, bu müalicə proqramına başlaya bilsin. Şəxs özü asılı olduğunu qəbul etməlidir. Çünki bu etiraf müalicənin 50 faizini təşkil edir".

Baş direktor narkomanların bu yola düçar olmasının səbəblərindən danışaraq bildirib ki, natamam, boşanmış, övladına kifayət qədər zaman ayıra bilməyən və onun nə zaman evdən çıxıb-qayıtdığına, pulu necə və nəyə xərclədiyinə nəzarət etməyən ailələrdə övladlar arasında bu yola meyillilik olur. Daha yuxarı yaş qrupunda da ailədaxili problemlərin rolu var:

"Bu cür problemlər, diqqətsizliklə qarşılaşan gənclərin ətrafında bir narkotik istifadəçisinin olması belə, artıq onun risk qrupuna daxil olması deməkdir. Çünki bir narkotik istifadəçisi il ərzində azı 2-4 nəfəri yoldan çıxara bilir. Adamlar bir dəfə əhvallarını qaldırmaq üçün bu zərərli maddədən istifadə edərək ondan asılı vəziyyətə düşürlər".

O.Cəfərovun sözlərinə görə, hazırda rəsmi olaraq 33 min 778 nəfər narkoman qeydiyyatdadır. Onlardan da 618 nəfərini qadınlar təşkil edir.

# Uğursuz masa...

## Minsk qrupu dəfələrlə çalışıb ki, özünü yenidən proseslərin içinə atsın



“Ermənistana verilən açıq və gizli dəstəyin fərqindəyik. Həmsədrlərin proseslərə geri dönüşünün qarşısını birdəfəlik almalıyıq”

İsmayıl Qocayev

**ABŞ dövlət katibi Entoni Blinken, Rusiyanın Xariji işlər naziri Sergey Lavrov və Fransanın xariji siyasət idarəsinin rəhbəri Can-İv Le Drian ATƏT-in Minsk qrupunun yenidən aktivləşməsini və prosesdə yaxından iştirakını istəyiblər.**

Vurğulayıblar ki, hər üç dövlət Ermənistanla Azərbayjan arasında birbaşa dialoqun Minsk qrupu vasitəsilə yenilənməsini dəstəkləyir. Həmsədr ölkələr tərəfləri sentyabrda Nyu-Yorkda və noyabrda Parisdə keçirilmiş görüşlərlə başlamış xariji işlər nazirləri səviyyəsində dialoqu davam etdirməyə çağırıblar. Eləjə də regionda davamlı sülhü təşviq etmək üçün təmasları dövlət başçıları səviyyəsində davam etdirməyə səsləyiblər: ”Azərbayjan və Ermənistanı sərhədlərin delimitasiyası və demarkasiyası, iqtisadi və nəqliyyat əlaqələrinin bərpası kimi problemli məsələlərin həlli üçün konstruktiv işləməyə çağırırıq. Bu işdə həmsədrlər önəmli rol oynaya bilər”. Bununla yanaşı, ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi A.Kasprşikin regiondakı fəaliyyətinə də ”zərurət” yarandığı ifadə olunub. Xatırlatmaq yerinə düşər ki, Ermənistan Azərbayjan torpaqlarını işğal altında saxladığı 30 ildə ən böyük dəstəyini məhz ATƏT-in Minsk qrupundan alıb. Bu qrupun münaqişəyə ən böyük ”töhfəsi” problemi uzatmaq, Azərbayjanı de-fakto işğal faktı ilə barışdırmaq olub. Səmərəsiz, yalnız turist səfərlərini xatırladan gediş-gəlişlər münaqişənin sona çatmasında heç bir rol oynamayıb. Bunu qrupa üzv olan dövlətlərin bəzilərinin təmsilçiləri özləri də etiraf ediblər. İndi yenidən bu yarıtmaz vasitəçilik institutunun meydana çıxarılması israrla təklif olunur. Ermənistan da öz növbəsində Minsk qrupunu fəallaşdırmaq və gələjəkdə ”status” məsələsini gündəmə gətirmək haqqında düşünür. Ermənilərin həmsədrlərdən ikiəlli yapışmasında məqsəd budur. Azərbayjan Minsk qrupunun fəaliyyətinə birmənalı münasibət sərgiləyib və qrupun fəaliyyətinə rəsmi səviyyədə etiraz edib. Əksəriyyət hesab edir ki, nəinki siyasi, hətta humanitar statusda belə qrupun regiona qayıdışı əlavə problemlər deməkdir.

**Azərbayjan Milli İstiqlal Partiyasının sədri Arzuxan Əlizadə ”Şərq”ə bildirib ki, dövlətin də, ijtimaiyyətin də həmsədrlərlə bağlı yanaşması birmənalıdır. Partiya sədrinin sözlərinə görə, 44 günlük müharibədən sonra Minsk qrupu dəfələrlə çalışıb ki, özünü yenidən proseslərin içinə atsın:** ”Minsk qrupunun Jənubi Qafqazda gedən proseslərə, xüsusən Azərbayjan-Ermənistan arasındakı məsələlərə müdaxiləsi yolverilməzdir. Həmsədrlərin geri dönüşünün qarşısını birdəfəlik almalıyıq. ABŞ, Fransa və Rusiyanın Bakıya və İrəvana münasibətləri hamıya bəllidir. Üç ölkənin Ermənistana verdiyi açıq və gizli dəstəyin fərqindəyik. Bugünədək verdikləri mənasız bəyanatlar da göstərir ki, üçlü vasitəçilik institutunun bölgəyə və tərəflərə yanaşması dəyişməyib. Əvvəlki ədalətsiz və qərəzli mövqeləri bu gün də davam etməkdədir. Onların bütün təklif və təşəbbüslərini gözardı etməliyik. XİN səviyyəsində Minsk qrupu üzvləri ilə keçirilən görüşlər isə sıradan təmaslardır və heç bir mahiyyət kəsb etmir. Sadəjə, rəsmi Bakı bəyan edib ki, həmsədrlər öz təkliflərini versinlər, əgər təkliflər Azərbayjan tərəfindən məqbul sayılarsa, müəyyən addımlar atıla bilər. Amma indiki şəraitdə Minsk qrupunun siyasi danışıqlara, Azərbayjan-Ermənistan arasındakı müzakirələrə yaxın buraxılması qəbuledilməzdir”.



# Polad Bülbüloğlu Fransa səfirini onun xahişi ilə qəbul edib

## Diplomatlar Soçidə keçirilmiş üçtərəfli görüşün nəticələrini müzakirə ediblər

**Cari ilin 8 dekabr tarixində Səfir Polad Bülbüloğlu Fransa Respublikasının Rusiya Federasiyasındakı Fövqəladə və Səlahiyyətli Səfiri Pyer Levini onun xahişi ilə qəbul edib.**

Azərbaycanın Rusiyadakı Səfirliyindən Trend-ə verilən məlumata görə, görüşdə Azərbaycanın Səfiri fransalı həmkarı ilə Azərbaycan, Rusiya və Ermənistan liderlərinin 2020-ci ilin 10 noyabr və 2021-ci ilin 11 yanvar tarixli bəyanatlarının müddəalarının icrası ilə bağlı fikir mübadiləsi aparmışdır. Eyni zamanda söhbət əsnasında 26 noyabr 2021-ci il tarixində Soçidə keçirilmiş yüksək səviyyəli üçtərəfli görüşün nəticələri müzakirə olunub.

Səfir Pyer Levi qəbula görə təşəkkürünü bildirərək, post münaqişə, xüsusilə də Soçi görüşündən sonrakı vəziyyətə dair ölkəmizin mövqeyi ilə maraqlanıb.

Polad Bülbüloğlu ölkəmizin Prezident İlham Əliyevin qeyd etdiyi kimi sülh prosesinə hazır olduğunu bildirmiş, bu kontekstdə sözügedən bəyanatların bəndlərinin Azərbaycan tərəfindən yerinə yetirilməsi məqsədi ilə praktiki addımların atıldığına baxmayaraq, Ermənistan tərəfindən bu öhdəliklərin hələ də icra olunmadığını vurğulanıb.

Ermənistanı mövcud reallıqla barışmalı olduğunu və tezliklə regiondakı iqtisadi və nəqliyyat əlaqələrinin bərpasının vacibliyini önə çəkən Səfir, üç ölkənin baş nazirlərinin müavinləri səviyyəsində fəaliyyət göstərən İşçi qrupun keçirildiyi görüşləri qeyd etmiş və bu xüsusda, bölgədə nəqliyyat kommunikasiyalarının, o cümlədən Zəngəzur dəhlizinin ən qısa zamanda açılmasının buradakı ölkələr üçün yeni imkanlar yaradacağına, əməkdaşlıq və sülhə xidmət edəcəyinə əminliyini ifadə edib.

Soçidə baş tutmuş Azərbaycan, Rusiya və Ermənistan liderlərinin görüşünə toxunan Polad Bülbüloğlu həmsöhbətinin nəzərinə çatdırmışdır ki, bu görüş Bakı ilə Yerevan arasında münasibətlərin normallaşması baxımından olduqca vacib görüş olmuşdur və məhz liderlərin birbaşa təmasları müsbət nəticə verə bilər.

Daha sonra Fransalı Səfir iki ölkə arasında delimitasiya prosesinin detalları barəsində ona məlumat verilməsini xahiş etmişdir.

Ölkəmizin Səfiri Azərbaycan ilə Ermənistan arasında dövlət sərhədinin delimitasiyası ilə bağlı müvafiq təmasların baş tutduğunu diqqətə çatdıraraq, ikitərəfli komissiyanın tezliklə yaradılmasının zəruriliyini qeyd etmiş və bu prosesin başlaması Cənubi Qafqazda sülh və sabitliyin bərqərar olması istiqamətində əhəmiyyətli addım olacağını önə çəkmiş və Azərbaycan tərəfinin bu məsuliyyətli işə hazır olduğunu bildirib.

Eyni zamanda, Polad Bülbüloğlu azad olunmuş ərazilərimizdə sürətlə aparılan genişmiqyaslı bərpa və yenidənqurma işləri haqqında ətraflı məlumat verərək, Füzuli şəhərində cəmi 8 ay ərzində beynəlxalq hava limanının inşa edildiyini, eləcə də qısa müddət ərzində yeni və müasir standartlara cavab verən ”Zəfər yolu”nun istifadəyə verildiyini həmsöhbətinin diqqətinə çatdırıb.

Həmçinin görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Görüşün sonunda Azərbaycanın Səfiri fransalı həmkarına Heydər Əliyev Fondu tərəfindən nəfis şəkildə çap edilmiş ”Zəfər salnaməsi” və ”Qarabağ işğaldan əvvəl və sonra” kitablarını hədiyyə edib.

Fransalı Səfir Pyer Levi maraqlı və faydalı görüşə görə öz təşəkkürünü bildirmişdir.

# İş yerini itirənlər...

## Sığorta almaq üçün daha 3 ay gözləməyəcəklər



**Dünən Milli Məclisin Əmək və sosial siyasət komitəsində ”İşsizlikdən sığorta haqqında” və ”Məşğulluq haqqında” qanunda dəyişikliklər layihəsi müzakirə olunub. Dəyişikliklər birinci oxunuşda komitədə qəbul olunub və Milli Məclisin Plenar İclasına tövsiyə edilib.**

*Parlamentin Əmək və sosial siyasət komitəsinin üzvü, iqtisadçı-ekspert Vüqar Bayramov deyib ki, qanuna dəyişiklikdən sonra pay torpağı olanlar İctimai İşlərə və Özünü Məşğulluq Proqramına cəlb oluna biləcəklər. İş yerini itirənlər isə sığorta almaq üçün daha 3 ay gözləməyəcəklər:* ”Dəyişikliklər sosial xidmətlərə əlçatanlığın artırılması baxımından vacib hesab oluna bilər. Dəyişikliklərdə işsizlikdən sığorta ödənişi alan şəxslərin əhatə dairəsinin genişləndirilməsi, həmçinin sığorta ödənişinin alınması üçün 3 aylıq gözləmə müddətinin ləğv edilməsi nəzərdə tutulub. Dəyişikliklər həmçinin müddətli əmək müqaviləsi üzrə tələb edilən sığorta stajının azaldılmasını özündə ehtiva edir. Belə ki, qanunun müvafiq maddəsində nəzərdə tutulan halda sığorta hadisəsinin baş verdiyi tarixdən əvvəlki ardıcıl gələn 36 təqdim ayı ərzində müddətli əmək müqaviləsi üzrə ən azı 30 ay sığorta stajına malik olan əmək qabiliyyətli şəxslərə minimum sığorta ödənişi təyin olunacaq. Əvvəlki redaksiyada bu ödəniş 35 ay sığorta stajına görə verilirdi. Eyni zamanda ”Məşğulluq haqqında” qanuna təklif edilən dəyişikliklərdə mülkiyyətində kənd təsərrüfatına yararlı torpaq payı olub, digər məşğulluğu olmayan vətəndaşlarımızın haqqı ödənilən ictimai işlərə, habelə özünüməşğulluğa cəlb olunması nəzərdə tutulur. Çıxışımda işsizlikdən sığorta üzrə ödənişlərinin artırılması üçün mövcud mexanizmin genişləndirilməsinin zəruriliyindən danışdım. Həmçinin, ştaj ilə bağlı tələbin 24 aya endirilməsini, pay torpağı olanların öz torpaqlarını satdıqdan sonra bu sığortadan istifadə hüququnun əldə edilməsi kimi təkliflər səsləndirdim”.

**İsmayıl**

# İslam peyğəmbərinin "şəkli" olan kitablar müsadirə edilib

## Ərdoğan: ”Bu işə cavabdeh olanlardan əlbəttə ki, hesab sorulacaq”



**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bölgə müftilərinin 40-cı toplantısında çıxışı zamanı vacib məsələyə toxunub. R.T.Ərdoğan bildirib ki, son dönəmlərdə Avropada islam peyğəmbərinə qarşı sayğısızlığa qarşı ən güclü təpkini Türkiyə nümayiş etdirib.**

Lakin Türkiyə hökuməti də gözlənilməz hadisə ilə qarşılaşıb. Suriyada Türkiyə dövlətinin nəzarəti altında olan bölgələrdəki məktəblərdə içində islam peyğəmbərinin rəsmi kimi təqdim edilən şəkilli kitablar paylanıb. Bundan xəbər tutulduğunda kitabların paylanması dərhal dayandırılıb, kitablar məktəblərdən toplanıb. Ərdoğan ”bu işə cavabdeh olanlardan əlbəttə ki, hesab sorulacaq. Müftilərimiz vəzifələrini layiqincə yerinə yetirmədikdə, Allah göstərməsin, qos-qoca bir millətin bu dünyası da, öteki dünyası da bərbad olar”, deyib.

**Məlahət**

İsmayıl Qocayev

**ABŞ Prezidenti Cozef Bayden və Rusiya rəhbəri Vladimir Putin arasında videokonfrans formatında keçirilən görüş 2 saat çəkib. Görüşün əsas mövzusu Ukrayna olub. Ağ Evdən verilən açıqlamada bildirilib ki, görüş zamanı Bayden rusiyalı həmkarı Vladimir Putinə ”Amerikanın Moskvanın Ukrayna yaxınlığında qoşun toplamasından narahatlığını” çatdırıb.**

Bayden söz verib ki, Vaşinqton və onun müttəfiqləri hərbi eskalasiya halında güclü iqtisadi və digər tədbirlərlə cavab verəcək. Ağ Ev başçısı Ukraynanın suverenliyi və ərazi bütövlüyünü dəstəklədiyini təkrarlayıb. Həmçinin, vurğulanıb ki, prezidentlər öz komandalarına danışıqları davam etdirməyi tapşırıblar. Vaşinqton bunu öz müttəfiqləri, tərəfdaşları ilə sıx koordinasiya şəraitində həyata keçirəcəyini bəyan edib. Liderlər strateji sabitlik, kibercinayətlər, o cümlədən İran da daxil olmaqla regional məsələlər üzrə də müzakirələr aparıblar. Əlbəttə, çoxdan gözlənilən görüşdə önəmli məsələ nələrin müzakirə edilməsi ilə bağlıdır. Ağ Evdən gələn açıqlamalar demək olar ki, görüşdən öncə mütəxəssislər tərəfindən təqribən ehtimal edilən mövzularla üst-üstə düşür. Görüşün əvvəlcədən gərgin atmosferdə keçəcəyi məlum idi. Rusiya ona qarşı tətbiq edilən sanksiyaların aradan qaldırılmasını istəyir. Eyni zamanda Ukraynanın NATO-ya daxil olmasının qarşısını almaqla hərbi alyansın Rusiyanın sərhədlərinə gəlib çıxmasını əngəlləməyə çalışır. Sözsüz, ABŞ-ın da öz maraqları var. Görüşdən öncə Rusiya Prezidenti Vladimir Putinin işlətdiyi ”Ukrayna bizim qırmızı xəttimizdir” ifadəsinə münasibət bildirən Bayden heç bir ”qırmızı xətt” tanımadığını bildirib. Siyasi təhlilçilərə görə, hər iki tərəfin Ukrayna məsələsində direniş göstərməsi Ukraynada stabilliyin uzun müddət arxa planda qalacağını göstərir. Rusiya iqtisadiyyatına tətbiq edilən sanksiyaların da tezliklə aradan qaldırılacağı inandırıcı görünmür. Həm də bölgədə mövqe və nüfuz müharibəsinin getdiyi də sirr deyil. O səbəbdən nəticəsiz Bayden-Putin görüşünün Donbasda müharibənin başlanmasına gətirib çıxaracağını iddia edənlər də var, əksini düşünənlər də.

**”Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu ”Şərq”ə açıqlamasında deyib ki, prezidentlər yekun qərara gəlməsələr də, dialoqu davam etdirəcəklərini bildirdilər.** Politoloqun sözlərinə görə, Co Bayden Vladimir Putindən təminat almaq istəyirdi ki, Rusiya Ukraynaya hərbi müdaxilə etməyəcək. Öz növbəsində Putin də Baydendən təminat almaq istəyirdi ki, NATO Şərqə doğru genişlənməyəcək və Ukrayna Şimali Atlantika Blokuna üzv olmayacaq:



# Bütün proqnozlar doğru çıxdı

## Bayden Putinin “qırmızı xətt”ini tanımadı

”Bayden bununla bağlı Putinə təminat verə bilmədiyi kimi Putin də Baydenə heç bir təminat verməyib. Rusiya rəhbəri illərdir eyni fikri təkrarlayır. Deyir ki, 1990-cı illərdə Almaniya Federativ Respublikası Almaniya Demokratik Respublikası ilə birləşərkən və sovet qoşunları keçmiş sosialist Almaniyasını tərk edərkən ABŞ və Avropa dövlətləri NATO-nun genişlənməyəcəyini SSRİ-nin ozamankı lideri Mixail Qorbaçova vəd etmişdilər. Ancaq Vaşinqton və Brüssel şifahi verdikləri vədi yerinə yetirmədilər. Ona görə indi Moskvaya yazılı təminat lazımdır ki, hərbi alyans bundan sonra Şərqə doğru genişlənməyəcək. Putin bunu Rusiya üçün ”qırmızı xətt” adlandırır. Buna cavab olaraq Bayden və hərbi blokun rəhbərliyi Moskvanın tərtib etdiyi ”qırmızı çizgini” tanımadıqlarını bəyan edirlər. Həqiqətən Ukrayna və Gürcüstan müstəqil dövlətlərdir və istədikləri təşkilata üzv ola bilərlər. Kremlin məntiqindən belə çıxır ki, Ukrayna və ya Gürcüstan NATO-ya üzv olsalar, bu iki ölkə Rusiya tərəfindən yenidən cəzalandırılacaq. Bu, imperiya təfəkkürüdür”.

> “ABŞ Ukraynanı qorumaqda israrlıdır, Rusiya isə NATO-nun Şərqə doğru genişlənməsini qəbul etmir”

**E.Şahinoğlu Ukrayna-Rusiya gərginliyinin müharibəyə çevrilmə ehtimalından da danışıb:** ”Ukraynalı hərbçilərin sözlərinə görə, Rusiya sərhəddə 92 mindən çox hərbçi cəmləşdirib. Bəzi mülahizələrə görə, iki ölkə arasında müharibə gələn ilin yanvar və fevral aylarında başlaya bilər. Ukrayna Müdafiə Nazirliyi hücumun necə həyata keçiriləcəyi mexanizmini açıqlayıb. Kiyevin iddiasına görə, Rusiya Odessa və Mariupol şəhərlərinə desant çıxaracaq. Növbəti müharibənin 2014-cü ildəki müharibədən daha dəhşətli olacağı ehtimal edilir. Bu senariyə görə, hücumdan əvvəl Rusiya Ukraynadakı tərəfdarları vasitəsilə qarşıqlıq yaradacaq, mitinq və küçə yürüşləri təşkil edəcək. Prezident Vladimir Zelenski də ona qarşı qiyam hazırlandığını bildirdi. Yəni əvvəlcə qiyam olacaq, bundan sonra Rusiya Donbas əhalisini qorumaq adı altında bu bölgəyə daxil olacaq. Krım da oxşar senari ilə ilhaq olunmuşdu. Ukrayna müxtəlif ölkələrdən modern silahlar və hərbi texnika alıb. Rusiyada şübhələnirlər ki, Ukrayna prezidenti orduya Donbasa daxil olmağa əmr verə bilər. Rusiya buna cavab olaraq Ukrayna ilə sərhədə qoşun toplayıb. Bu, Kremlin Kiyevə qarşı həm də psixoloji savaşıdır. Kreml bu yolla Kiyevə mesaj yollayır ki, əgər Ukrayna ordusu Donbasda genişmiqyaslı hərbi əməliyyata başlasa, Rusiya ordusu Donbasa daxil olacaq və burada pasport payladığı vətəndaşlarını qoruyacaq. Hətta Rusiyanın Donbasla kifayətlənməyəcəyi, Ukraynanın Mariupol və Odessa şəhərlərini də ələ keçirəcəyi deyilir”.

**Siyasi təhlilçi Ukraynanın parçalanması barədə Moskvada planlar tərtib edənlərin olduğunu deyib:** ”Maripuol və Odessa Ukrayna üçün strateji liman şəhərləridir. Ukrayna üçün əsas problem odur ki, bu şəhərlərdə Rusiyaya rəğbət bəsləyənlərin sayı az deyil. Ona görə də Kiyev Donbas və Krımın geri qaytarılması barədə düşünməklə yanaşı yeni ərazilərin işğal altına keçməməsi üçün də var gücüylə çalışmalıdır. ABŞ və Avropa Ukraynanın müdafiəsini gücləndirmək istəyirsə, bu ölkənin NATO-ya üzvlüyü məsələsini sürətləndirməlidir. 2008-ci ilin aprel ayında Buxarest sammitində Gürcüstanın və Ukraynanın bloka üzvlüyü qəbul edilsəydi, Rusiya nə Gürcüstana müdaxilə edərdi, nə də Krımı ilhaq etməklə Ukrayna ərazisində növbəti separatçı bölgə yaradardı. O zaman Fransa və Almaniya bunun əleyhinə çıxdılar. İndi də Paris və Berlin Gürcüstan və Ukraynanın NATO üzvlüyünün əleyhinədir. Vaşinqtonun Paris və Berlinə təzyiq edib bu məsələni həll etməsi aktuallaşıb. Əks halda Rusiya münasib vaxtda Ukrayna ərazisinə müdaxilə planından imtina etməyəcək. Ukraynanı qorumağın başqa bir variantı da var: ABŞ və müxtəlif Avropa ölkələri Ukraynada hərbi bazalar yaradırlar. Bu amil də Rusiyanı Ukraynaya hərbi müdaxilədən çəkindirə bilər”.

# Yaxın 5 ildə ölkəmizdə rəqəmsal valyutanın yaradılması mümkün deyil



## Böyük ehtimalla Azərbaycan bənzər təcrübələrin dünyada daha çox yayılmasını gözləyəcək

**Mərkəzi Bank tərəfindən ölkədə rəqəmsal manatın yaradılması üzərində tədqiqatlar aparılır və hökumətdə bu istiqamətdə danışıqlar gedir. Bu barədə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı deyib. Onun sözlərinə görə, rəqəmsal valyuta aləmində böyük bir dəyişikliyin şahidi olacağıq:**



”Rəqəmsal valyuta da demək olar ki, geniş miqyasda bizim maliyyə bank sektorunu tamamilə dəyişəcək. Pulla bağlı 3 inqilabi dəyişiklik olub. Sonuncu dəyişiklik blokçeyn texnologiyaları əsasında kriptovalyutaların dövriyyəyə buraxılması oldu. Artıq rəqəmsal manatın yaradılması istiqamətində işlərə başlanılıb. Hökumətdə bu barədə danışıqlar gedir”. Məlumat üçün bildirək ki, dünyanın bir çox ölkələri artıq bu istiqamətdə nəzəri araşdırmalardan konkret müzakirələrə keçiblər. Avropa Mərkəzi Bankı, habelə bir çox ölkələrin mərkəzi bankları ayrıca rəqəmsal valyuta yaratmağın hərtərəfli təhlil və araşdırmaları ilə məşğuldur. Çində rəqəmsal yuanla bağlı pilot layihəsinin elanından sonra qonşu Yaponiyada da bunu maliyyə təhlükəsi olaraq qəbul edərək sözügedən istiqamətdəki işləri sürətləndirib. Qardaş Türkiyədə də son dövrlər ”rəqəmsal lirə” yaratmaq barədə müzakirələr gedir. Azərbaycanda isə nağdsız ödənişlərin həcminin artmasına baxmayaraq rəqəmsal valyutanın dövriyyəsi reallaşdırılmayıb. Mərkəzi Bankın Rəqəmsal Valyutası əsasən elektron pul deməkdir. Ənənəvi nağd valyutalarda olduğu kimi onu əlində tutan şəxs də mərkəzi bankın öhdəliyini daşıyır. Yenə bununla elektron ödəmələr və köçürmələr edə bilər. Kredit kartları, debet kartları və ödəmə tətbiqetmələri ilə edilən əməliyyatlar əslində bir növ elektron pul istifadəsidir. Lakin kommersiya bankları bunu mərkəzi bankların çap etdikləri əskinasları öz hesablarına yükləməklə edirlər. Fərq bankların rəqəmsal valyutalarının risksiz olmamasıdır. Bankların iflas etməsi halında buradakı hesablarda saxladığınız əmanətləri itirmə riski böyükdür.

**İqtisadçı-ekspert Rəşad Həsənov ”Şərq”ə bildirib ki, dünyanın böyük dövlətlərinin əksəriyyəti elektron valyutaların yaradılması üçün geniş hazırlıqlara başlayıblar.** Azərbaycan Mərkəzi Bankının da bu istiqamətdə addımlar atması qlobal maliyyə bazarının üzvü olan Azərbaycanın gələcəkdə baş verəcək yeniliklərə hazırlıqlı olması baxımından önəmlidir. Ekspert bildirib ki, burada söhbət dijital pulun yaradılmasından gedir: ”Bu, müxtəlif adlarla - rəqəmsal, yaxud ”koyn manat” şəklində ifadə oluna bilər. Burada əsas məqsəd blokçeyn texnologiyalarının tətbiq olunmasıdır. Rəqəmsal valyutaların dövriyyəsi daha çox innovasiyanın geniş tətbiq olunduğu və ya innovativ texnologiyaları qəbul etmiş cəmiyyətlərdə perspektivli olur. Əlbəttə, müəyyən zaman çərçivəsində Azərbaycanda da kriptovalyutaların tətbiq edilməsi, rəqəmsal milli valyutanın yaradılması və istifadə edilməsi baş tutacaq. Amma yaxın zamanda mümkün deyil. Tədqiqatlar dedikdə elə düşünməyin ki, bu istiqamətdə konkret komanda fəaliyyət göstərir və onlara verilən vaxt bitdikdən sonra rəqəmsal manatın emissiya edilməsi mümkün olacaq. Yox, elə deyil. Söhbət imkanların öyrənilməsindən, beynəlxalq təcrübə ilə tanışlıqdan, müsbət və mənfi tərəflərinin araşdırılmasından, prosesə nəzarət mexanizmindən gedir. Nəzərə alaq ki, dünyada bununla bağlı təcrübələr də çox deyil. Fərqli Mərkəzi Bankların məsələyə müxtəlif baxışları var. Eyni zamanda beynəlxalq maliyyə təşkilatlarının, Beynəlxalq Valyuta Fondunun və Dünya Bankının da ayrı-ayrı yanaşması mövcuddur. Bunlar ümumiləşmədikcə konkret addım atmaq çətindir. Böyük ehtimalla Azərbaycan bənzər təcrübələrin dünyada daha çox yayılmasını gözləyəcək. Praktikada tətbiq edildiyi zaman ortaya çıxan problemlər müəyyənləşsin. Ən azından yaxın 5 ildə rəqəmsal manatın emissiya edilməsini gözləmək sadəlövhlük olardı”.

Ekspert qeyd edib ki, Azərbaycanda pul dövriyyəsinin 90 faizdən çoxu nağd şəkildə olur: ”Ölkədə əhalinin əhəmiyyətli hissəsi kartları nağdlaşdırma məqsədilə istifadə edir. Onlayn ticarət dövriyyəsi pandemiya dövründə bir qədər artsa da, ümumilikdə çox aşağı səviyyədədir. Əhalinin əhəmiyyətli hissəsi, xüsusilə də orta və yaşlı nəsil məsələyə konservativ yanaşmır. Kriptovalyutanın dövriyyəsinin genişlənməsində digital baçarıqların inkişafı çox əhəmiyyətlidir. Bizdə hələlik əhalinin digital bacarıqları, mövcud infrastruktur buna tam olaraq şərait yaratmır”.

**İsmayıl Qocayev**



# Küçədə etiraz səsləri...

## Əsir və itkin düşmüş erməni əsgərlərin yaxınları aksiya keçiriblər

**Ermənistanda həbs edilmiş və müharibə zamanı itkin düşmüş erməni hərbçilərin valideynləri etiraz aksiyalarını davam etdirirlər. İrəvanda hökumət binasının qarşısına toplaşmış valideynlər hökumət binasının yerləşdiyi Respublika meydanına gedən əsas küçələri bağlayıblar.**

Aksiya iştirakçıları Dəmirçiyan küçəsində parlamentin girişinə toplaşaraq spiker Alen Simonyanla görüş tələb ediblər. Fəallardan biri və itkin düşən hərbçinin qohumu Arsen Qukasyan bildirib ki, etirazçılar gecəni Ermənistan parlamentinin qarşısında keçirib və spikerlə danışmaq istəyiblər. Onun sözlərinə görə, bir neçə deputat onlarla danışıb, lakin söhbət qısamüddətli və nəticəsiz olub. İqtidarı təmsil edən deputatlar isə etirazçıları sakitləşdirməyə və Simonyanın sözlərinə bəhanə tapmağa çalışsalar da, valideynlər spikerin şəxsən görüşə gələrək dediklərinə cavab verməsini istəyiblər.

> “Valideynlərə qarşı saymazyana münasibət erməni rəsmilərinin danışıqlarından da hiss olunur”

Xatırladaq ki, Ermənistan parlamentinin spikeri Alen Simonyanın məhbuslarla bağlı qalmaqallı açıqlamalarını əks etdirən videosu itkin erməni hərbçilərinin valideynlərinin hiddətinə səbəb olub. Parlament sədri məhbusların artıq onun üçün mövcud olmadığını deyib. Simonyanın sözlərinə görə, sözügedən hərbçilər silahlarını yerə ataraq, qaçıblar və itkin düşüblər ki, nəticədə də onlar qarşı tərəfə əsir düşüblər. Bu sözdən sonra bir müddət sakit dayanmış itkin yaxınları yenidən hökumət əleyhinə aksiyalara başlayıblar.

**Ermənistandakı qarışıqlığı ”Şərq”ə dəyərləndirən siyasi şərhçi Azər Qasımov bildirib ki, itkin və əsir düşmüş erməni əsgərlərinin yaxınlarının Ermənistan hakimiyyətindən izahat tələb etməsi təbii haldır. Ekspertin sözlərinə görə, əsas məsələ bu tələblərə göstərilən reaksiyadır:** ”Ermənistan tərəfi ”əsir və itkin düşmüşlər” məsələsini öz siyasi məqsədləri üçün istifadə edir. Məsələn, hakimiyyət hər hansı ciddi hadisə öncəsi bir neçə ”əsirin” geri alınmasına çalışır. Müxalifət isə ”əsir”likdə olanların geri alınması üçün ciddi işin aparılmamasını bəhanə edərək hakimiyyəti gözdən salmağa yönəlik addımlar atır. Arada qalanlar isə itkin erməni hərbçilərinin valideynləri olur. Onlar iki qüvvə arasında siyasi alətə çevrilirlər. Valideynlərə qarşı saymazyana münasibət erməni rəsmilərinin danışıqlarından da hiss olunur. Ermənistan rəsmilərinin əksəriyyəti əsir düşənlərə ”silahlarını atıb qaçan, təslim olan”lar kimi yanaşırlar. Amma unudurlar ki, bu əsgərlər Azərbaycan Ordusunun gücünə bələd olduqları üçün müqavimətsiz təslim olublar. Güclü Azərbaycan hərbçisinin qarşısında erməni əsgərinin təslim olmaqdan başqa çıxış yolu, şansı yoxdur. Rəsmi Bakı Ermənistanda gedən prosesləri lehinə çevirməyi bacarır. Yəni lazım olan məqamda bir neçə ”əsiri” geri qaytarıb gərginliyi azaltmaq, yaxud da geri verməyib erməni hakimiyyətinə təzyiqləri artırmaq əlimizdədir. Bu, İrəvan hökumətinə qarşı ciddi təzyiq vasitəsidir. Əlbəttə, gec-tez erməni ”əsirlər” geri qaytarılacaq. Onların Azərbaycanda həmişəlik qalmayacağı hamıya aydındır. Ermənistan yekun sülhə razılıq versə və tələblərimizi qeyd-şərtsiz qəbul etsə, İrəvan da istədiyini alacaq”.

**İsmayıl Qocayev**

# 20 ildir danışıqlar gedir, nəticə yoxdur

## İran tərəfi Zəngəzur dəhlizi aktuallaşan kimi körpü tikintisini ortaya atır



> “Rəsmi Tehranın bu məsələni yenidən gündəmə gətirməsi hələ ki, söz səviyyəsindədir”

**Azərbaycan və İran Astaraçay üzərində avtomobil yolları üçün yeni körpünün tikintisinə dair razılıq əldə edib. Bunu İranın Yol və şəhərsalma nazirinin müavini, ölkənin nəqliyyat infrastrukturunun tikintisi və inkişaf etdirilməsi şirkətinin baş direktoru Xeyrullah Xademi deyib.**

X.Xademi bildirib ki, körpünün tikintisi iki ölkə arasında nəqliyyatın gediş-gəlişinin və beynəlxalq tranzitin artırılması məqsədilə reallaşdırılır: ”Dekabrın 7-də Astarada İran və Azərbaycan rəsmilərinin müştərək iclası keçirilib. İclasda qərara alınıb ki, Astaraçay üzərində dəmir yolu körpüsünün yanında avtomobillərin gediş-gəlişi üçün yeni körpü tikilsin. Körpü 15 ay müddətində inşa ediləcək”.

O, həmçinin diqqətə çatdırıb ki, 4 zolaqlı körpünün uzunluğu 97 metr və eni 32 metr olacaq: ”Körpünün tikintisinə hər iki ölkə müştərək sərmayə yatıracaq. Bugünkü iclasda podratçı şirkətin müəyyənləşməsi və layihənin maliyyələşməsi ilə bağlı müzakirə aparılıb. Yaxın vaxtlarda İranın Yol və şəhərsalma naziri Rüstəm Qasiminin Azərbaycan rəsmiləri ilə müştərək iclası olacaq. Həmin iclasda layihəyə dair saziş imzalanacaq”.

**Yeni tikiləcək körpü və yaranacaq tranzit marşrutunun ölkəmiz və region üçün əhəmiyyəti barədə ”Şərq”ə danışan politoloq Sədrəddin Soltan bildirib ki, Astaraçay üzərində körpünün tikintisi ilə bağlı danışıqlar az qala 20 ildir davam edir:** ”Bu, şimal-cənub nəqliyyat dəhlizi ilə bağlı bir elementdir. Amma ötən illər ərzində bu istiqamətdə yalnız söhbətlər gedib. İndiyə qədər elə də ciddi addımlar atılmayıb. Hətta dəmiryolu xəttinin çəkilməsi də gündəlikdə var idi. Amma hələ ki, bu yöndə İran tərəfi ləng addım atır. Son zamanlar Zəngəzur dəhlizinin açılması işi aktualdır. Ona görə də İran tərəfi yenidən körpü tikintisi ilə bağlı məsələni gündəmə gətirir. Bundan başqa Cənub dəhlizi məsələsində İranın layihəsi bir qədər fərqlidir. Rəsmi Tehran Şimal-Cənub Nəqliyyat Dəhlizində Ermənistanın üstünə düşmək istəyir. Çünki bir müddət əvvəl Gorus-Qafan avtomobil yolunda hadisələr baş verib. Həmin zaman İran Ermənistanla bu istiqamətdə danışıqları fəallaşdırıb. Onda bildiriblər ki, Ermənistanı Simal-Cənub dəhlizi vasitəsilə birləşdirə bilərlər. Eləcə də bu üsulla İran Ermənistanın ərazisinə keçməklə Avropaya çıxış əldə edə bilər”.

S.Soltan hesab edir ki, indiki şəraitdə cənub qonşumuzun bu məsələni yenidən gündəmə gətirməsi hələ ki, söz səviyyəsindədir: ”Danışıqlar prosesi aparmaq üçün bir yoldur. Amma ortada real addım yoxdur. Gerçək addımların atılacağına dair ehtimal azdır”.

**Sücayət Mehti**



## Tarixçi alim Aydın Balayev vəfat edib

**Tarix üzrə elmlər doktoru Aydın Balayev vəfat edib.**

Bu barədə APA-ya onun həyat yoldaşı Nailə Balayeva məlumat verib.

O, tarixçinin uzun müddət onkoloji xəstəlikdən əziyyət çəkdiyini vurğulayıb.

A.Balayev 1956-cı ildə Bakıda anadan olub. Bakı Dövlət Universitetinin Tarix fakültəsini və M.V.Lomonosov adına Moskva Dövlət Universitetini bitirib.

Qeyd edək ki, 65 yaşlı professor bir sıra araşdırmaların, tarixi əsərlərin müəllifidir.

Allah rəhmət eləsin!

## Azərbaycanda yeni dizaynlı metal pullar dövriyyəyə buraxıldı




**20 qəpiklik metal pul nişanının dizaynı yenilənərək tədavülə buraxılıb.**

Bu barədə Azərbaycan Respublikası Mərkəzi Bankı məlumat yayıb.

Belə ki, yenilənmiş 20 qəpiklik üzərində Dövlət Gerbi və istehsal ili əlavə olunub. Yenilənmiş 20 qəpiklik pul nişanının texniki parametrləri hazırda tədavüldə olan eyni nominallı metal pul nişanına müvafiq olaraq dəyişməz olaraq saxlanılıb.

Bildiririk ki, yenilənmiş 20 manatlıq kağız pul nişanı və 20 qəpiklik metal pul nişanı hazırda tədavüldə olan eyni nominallı pul nişanları ilə paralel olaraq dövriyyədə olacaq və tədavül vasitəsi kimi məhdudiyyətsiz istifadə ediləcək.

# "Rusiya "İsgəndər-M"in satışına aydınlıq gətirməlidir"

## Fərəc Quliyev: ”Müharibə zamanı 9 ton silah-sursat İran üzərindən Ermənistana ötürülüb”

**Rusiya istehsalı olan və bu ölkənin daxili istifadəsi üçün nəzərdə tutulmuş ”İsgəndər-M” raketinin qalıqlarının Şuşada tapılmasından sonra vəziyyət bir xeyli gərginləşmişdi.**



Bu mənada ki, orta və yaxın mənzilli raketlərin ləğv edilməsinə dair saziş ABŞ və SSRİ arasında 1987-ci ildə imzalanıb. Rusiya həmin sazişi 2019-cu ildə tərk edib. Məlum müqavilə dolayısı ilə bu kimi raketlərin nəinki satılmasını, hətta ləğvini nəzərdə tuturdu.

Rusiya bu sazişin tələblərini də yerinə yetirməyib. Burada raketlərin tək Ermənistana ötürülməsi deyil, həm də ABŞ qarşısında öhdəliklərini yerinə yetirməməsi barəsində fakt ortaya çıxır. Yəni 44 günlük Vətən savaşında Azərbaycan ərazilərinə ”İsgəndər-M”lərin atılması ciddi suallar doğurur. Həmin raketi Ermənistan tərəfi atıbsa, Rusiya onu niyə satıb? Əgər rəsmi Moskva o raketləri Ermənistana satmayıbsa, onları Rusiyanın özümü atıb və hansı əsasla?

Qeyd edək ki, ”İsgəndər” raketlərinin E (export), F (fuqas), K (kaset) və M (modern) kimi versiyaları mövcuddur. Bu raketlər 500 kiloqram ağırlığında partlayıcı maddə daşımaq gücünə malikdir. Ölçüləri 7 metrdən uzun, diametri 92 santimetr olan raket çox yüksək uçuş sürətinə malikdir. ”İsgəndər” raketlərinin nüvə başlığı daşımaq imkanına malik olduğu bildirilir. İxracı beynəlxalq müqavilə ilə qadağan olunub.

**Vəziyyəti ”Şərq”ə şərh edən Milli Dirçəliş Hərəkatı Partiyasının rəhbəri, sabiq millət vəkili Fərəc Quliyev bildirib ki, raketin Azərbaycana atılması ilə bağlı məsuliyyət rəsmi Moskvanın üzərinə düşür:** ”İsgəndər-M” satışı qadağan olunan raketdir. Rusiya bunu heç bir ölkəyə verməməli idi. Kreml açıq şəkildə konvensiyanı pozub. Şimal qonşumuz raketin Azərbaycana atılması ilə bağlı cavab verməlidir. Azərbaycan rəsmi olaraq münasibət soruşub, lakin indiyə qədər Rusiya nə buna cavab verib, nə də günahkarları cəzalandırıb”.

F.Quliyev qeyd edib ki, məhkəmə qərar verərsə, Rusiyaya müəyyən sanksiyalar tətbiq edilə bilər: ”Müharibə dönəmində qadağan olunmuş, müxtəlif kimyəvi tərkibli, kaset bombalardan və raketlərdən istifadə edilib. Rusiya prezidenti demişdi ki, balansı qorumaq üçün Ermənistana silah veriblər. Əlavə olaraq, müharibə zamanı 9 ton silah-sursat İran üzərindən Ermənistana ötürülüb.

Bu, Azərbaycana qarşı olunan çox böyük qanunsuzluqdur. Bütün hallarda raketin atılmasının məsuliyyətini Rusiya daşıyır. Silahı satıbsa, bu, cinayətdir. Satmayıbsa, deməli, raket Ermənistanda olan Rusiyanın 102-ci hərbi bazasından atılıb. İndiyə qədər verilən cavablar bizi qane etmir.

Əgər beynəlxalq konvensiyalar əsasında müəyyən silahlar qadağan edilibsə, o silahı satan dövlət mütləq məhkəmə qarşısında cavab verməlidir.

Azərbaycan Rusiyanın cavab verməsi üçün Haaqa Məhkəməsinə müraciət edə bilər. Məhkəmə qərarı olduqdan sonra Rusiyaya müəyyən sanksiyalar tətbiq olunacaq”.

**Xanlar Əlibəy**

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

**Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi**



# Dini sahədə dialoq konsepsiyası çox önəmlidir

## Azərbaycan tolerantlıq ənənələrini bundan sonra da qoruyub saxlayacaq, gələcək nəsillərə ötürəcək

**Mələhət Rzayeva**

**Dekabrın 7-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı, Azərbaycanın Avropa İttifaqı yanında Nümayəndəliyi və Azərbaycanın Belçikadakı səfirliyinin dəstəyi ilə ”Dinlərarası dialoq: qlobal təhlükəsizliyin və mənəvi intibahın qarantı kimi” adlı beynəlxalq videokonfrans keçirilib. Dini Komitə sədri Mübariz Qurbanlı deyib ki, bu cür konfransların təşkilində əsas məqsəd dini-etnik zəmində ayrı-seçkilik və radikalizm halları, onların mənfi təsirlərinin qarşısının alınmasında birgə həll yollarının axtarılmasıdır.**

M.Qurbanlı Azərbaycanda dini, irqi və etnik zəmində ayrı-seçkilik, antisemitizmin heç vaxt qeydə alınmadığı dövlətlər sırasında mühüm yer tutduğunu vurğulayıb. Müasir dünyamızda dinlərarası münasibətlər və dialoqun əhəmiyyətini nəzərə çatdıran komitə sədri bəzən bu məsələ ilə bağlı ortaya çıxan ikili standartlar mövqeyinin yolverilməzliyinə, fərqli dini-mədəni dəyərlərə tolerant münasibətin vacibliyinə diqqət çəkib. Bu sahədə Azərbaycanın təcrübəsini paylaşan M.Qurbanlı Prezident İlham Əliyevin təşəbbüsü ilə Ümumdünya Mədəniyyətlərarası Dialoq forumları, Dünya dini liderlərinin sammitləri, Bakı Beynəlxalq Humanitar forumları, Qlobal Bakı forumları, BMT-nin Sivilizasiyalar Alyansının forumları kimi mötəbər tədbirlərin Bakı şəhərində keçirilməsini xatırladıb. Bunun Azərbaycan dövlətinin dinlərarası dialoqun inkişafı sahəsində apardığı siyasətə beynəlxalq dəstəyin ifadəsi olduğunu söyləyib: ”Azərbaycan regionda yaranmış yeni reallığa uyğun, yeni səhifə açır - işğaldan azad edilmiş ərazilərdə quruculuq işləri aparır. Mənsubiyyətindən asılı olmayaraq bütün tarixi-dini abidələri bərpa edir”. Komitə sədri dini liderlər tərəfindən irqi, dini ayrı-seçkilik, ekstremizm və separatizmin tənqidinə yönəlik çağırışlar edilməsinin zəruriliyini vurğulayıb.

Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini Qəmərxanım Cavadlı ölkəmizdə mövcud olan tolerantlıq mühiti barədə danışıb. Qafqazın ən uzunömürlü dini təsisatlarından olan, bölgə müsəlmanlarının tarixi-dini mərkəzi sayılan Qafqaz Müsəlmanları İdarəsi barədə məlumat verib. Müsəlman idarəsində səlahiyyət daşıyan qadın olaraq, Azərbaycanda qadın hüquqlarına, dini mühitə, ən əsası, dini mühitin demokratikləşməsinə göstərilən diqqətdən bəhs edib.

**Azərbaycanın Avropa İttifaqı yanında Nümayəndəliyinin başçısı Vaqif Sadıqov da bildirib ki, konfrans dinlərarası münasibətlərə olan marağın və dünya miqyaslı təhlükəsizliyin, eləcə də sabitliyin qorunmasında dialoqun rolunun daha bir sübutudur.** O qeyd edib ki, Azərbaycan bu sahəyə böyük önəm verən ölkədir və uzun müddətdir ki, dinlərarası dialoq sahəsində beynəlxalq əməkdaşlığın daha da genişləndirilməsi üçün müxtəlif forumlara, çoxtərəfli görüşlərə ev sahibliyi edir: ”Dinlərarası dialoqu açıq saxlamaq müasir dünyada bu sahədə həm nailiyyətləri, həm də problemləri görmək baxımından çox vacibdir. Bu, müvafiq sahədə narahatlıq doğuran məsələlərin səbəblərinin araşdırılması, ksenofobiya, antisemitizm, eləcə də müsəlmanlara, xristianlara və digər dinlərin nümayəndələrinə qarşı qərəzli münasibətin qarşısının alınmasının əsas yollarından biridir. Dövlətimiz həm İslam Əməkdaşlıq Təşkilatı, həm də Avropa Şurasının üzvü kimi müxtəlif imkanlardan istifadə edərək, sivilizasiyalararası dialoqun dərinləşdirilməsi və möhkəmləndirilməsinə öz töhfəsini verir. Bu istiqamətdə BMT tərəfindən yüksək qiymətləndirilən Bakı prosesini nümunə göstərmək olar”.

**Avropa Parlamentinin Mədəniyyətlərarası və Dinlərarası Dialoq üzrə İşçi Qrupunun həmsədri Yan Olbrixt da bildirib ki, dini sahədə dialoq konsepsiyası çox önəmlidir.** Onun sözlərinə görə, dinlərarası dialoq fəaliyyətləri üçün tolerantlıq və dözümlülük ənənələri zəngin olan ölkə və regionların təcrübəsi böyük əhəmiyyət kəsb edir.

Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin baş məsləhətçisi Əliheydər Zülfüqarov qeyd edib ki, Azərbaycanın din sahəsində apardığı siyasəti təqdirəlayiq nümunə hesab etmək olar. Ə.Zülfüqarov ümummilli lider Heydər Əliyevin tarixi-mədəni irsin və milli-mənəvi dəyərlərin dirçəldilməsinə, qorunub saxlanmasına daim böyük önəm verməsindən də danışıb. Bildirib ki, ümummilli liderin cəmiyyətdə dinin rolu və dövlət-din münasibətlərinin milli dövlətçilik maraqları baxımından tənzimlənməsi sahəsində əsasını qoyduğu müdrik siyasi xətt bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Türkiyənin Azərbaycandakı səfirliyinin Dini işlər üzrə müşaviri Zeki Yavuzyılmaz qeyd edib ki, türk mədəniyyətinin ən önəmli xüsusiyyətlərindən biri də birgəyaşayış vərdişinə sahib olmasıdır. O, dialoq mühitinin formalaşdırılmasının missionerliklə qarışdırılmamasının labüdlüyünü dilə gətirərək bu prosesin müxtəlif dinlərə mənsub şəxslərin inancına hörmət çərçivəsində həyata keçirilməsinin önəmini vurğulayıb. Rusiya Müftilər Şurasının sədri Ravil Qaynutdin Azərbaycana dinlərarası dialoqun təşkili üçün göstərdiyi təşəbbüslərdən dolayı minnətdarlığını ifadə edib. Dini liderlərin qlobal təhlükəsizlik naminə əməkdaşlıq etmələrinin vacibliyini bildirən Qaynutdin həmkarlarını dünya miqyasında ümumbəşəri dəyərlərin, multikulturalizm, həmrəylik ideyalarının təbliğində birgə olmağa səsləyib.

**Konfrans iştirakçısı, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin üzvü Ceyhun Məmmədov ”Şərq”ə bildirib ki, mədəniyyətlərin müxtəlifliyini qəbul etməyən, digər dinlərin nümayəndələrinin adət-ənənələrinə hörmətlə yanaşılmayan cəmiyyətlərdə sabitliyə və inkişafa nail olmaq qeyri-mümkündür. Deputat vurğulayıb ki, Azərbaycan qədim zamanlardan müxtəlif dinlərin qovuşduğu, ayrı-ayrı inanclara etiqad edən insanların daima sülh və əmin-amanlıq şəraitində yaşadığı məkan olub:** ”Azərbaycanın öz tolerantlıq ənənələrini bundan sonra da qoruyub saxlayacaq, gələcək nəsillərə çatdıracaq. Bu ənənənin zəiflədilməsinə yönələn bütün cəhdlərin qarşısı qətiyyətlə alınacaq. Xatırladım ki, ermənilər işğal altındakı ərazilərdə bütün məscid və kilsələri vəhşicəsinə dağıdıblar. İbadət mədəblərində donuz və inək saxlayıblar. Bu gün Qarabağdakı 67 məsciddən yalnız 2-i nisbətən salamatdır. İrəvanın mərkəzində qədim Azərbaycan məscidi ”İran məscidi” kimi təqdim olunur. Ermənistandan fərqli olaraq bu gün Bakının mərkəzində fəaliyyət göstərən erməni kilsəsi və içərisindəki 5 min ədəbiyyat dövlət tərəfindən qorunur. Azərbaycan hökuməti işğal dövründə Ermənistanın vəhşicəsinə dağıtdığı dini ibadət yerlərini də tezliklə təmir və bərpa edəcək. Həmin bölgələrdə yaşayan insanlar ibadətlərini sərbəst yerinə yetirmək imkanı əldə edəcəklər”.

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub



## Peşə təhsili sahəsində maxinasiyaların həddi-hüdudu yoxdur

### Dövlətin ayırdığı on milyonlarla manat vəsaitin sərfiyyat istiqamətləri dəqiqləşdirilməlidir

**”Təhsil sistemində diqqətdən kənarda qalan pillələrdən biri peşə təhsilidir. Buradakı maxinasiyaların həddi-hüdudu yoxdur”.**

**Bunu millət vəkili, təhsil eksperti Etibar Əliyev deyib. Deputat bildirib ki, Peşə Təhsili Dövlət Agentliyinin maliyyə-təsərrüfat fəaliyyətinin Hesablama Palatası tərəfindən yoxlanılması ictimai, sosial və siyasi zərurətdir:** ”Dövlətin bu sahənin saxlanılması və inkişafına ayırdığı on milyonlarla manat vəsaitin sərfiyyat istiqamətləri dəqiqləşdirilməlidir. Mal-materialın faktiki mövcudluğu ilə bağlı inventarizasiya aparılmalıdır. Torpaq sahələri və əmlakın sənədlərə uyğun varlığı yoxlanılmalıdır. Yanacaq və sürtgü yağlarının, təmir və təcrübə materiallarının müəssisələrə faktiki verilmə vəziyyəti araşdırılmalıdır. Peşə təhsili müəssisələri şagirdlərinə dövlət tərəfindən ayrılan təqaüdlərin verilməsində şəffaflıq müəyyən olunmalıdır. Peşə təhsili müəssisələrində istehsal olunan məhsulların satışından əldə olunmuş vəsaitlərin sonrakı taleyi də dəqiqləşməlidir. Həmçinin, əkilən torpaqların istifadəsinin qanunvericiliyə uyğunluğuna aydınlıq gətirilməlidir”.

**E.Əliyev əlavə edib ki, kadrların təyinat meyarları üzrə ixtisas uyğunluğu da yoxlanılmalıdır:** ”Bir şəxsin bir neçə müəssisəyə rəhbərlik etməsinin qaranlıq məqsədlərinə aydınlıq gətirilsə yaxşı olar. Son aylarda həbs olunmuş peşə təhsili müəssisələrinin rəhbərləri ilə ortaq məsuliyyət daşıyan, lakin məsuliyyətdən kənarda qalan şəxslərin dairəsi də müəyyənləşməlidir”.

**İsmayıl**

# “Hər səhər məktəbə gedəndə armud ağacının altında ləngiyərdi..."

## Şəhid anası: “Deyirdi, ana, məndən asılı deyil, səndən ayrılanda mənə çox pis təsir edir. Ona görə hər səhər burda oturub ağlayıb, sonra məktəbə gedirəm”



**Hər kəsin öz ömür yolu var. Talelərimiz də məhz elə bu ömür yoluna görə bir-birindən fərqlənir. Beşikdən məzaradək olan yolun adı ömürdü. Uzun, mənalı, qürurlu həyat yolu.**

Ömrünün ən bahar çaglarını vətəninə, onun azad gələcəyinə, gələcək nəslin xoşbəxtliyinə bağışlamaqsa, şəhidlik məqamına ucalmaq deməkdir. Şəhadətə yüksəlmək bəşər övladının həyatla ən yüksək zirvədə vidalaşmağıdır. Müqəddəs, pak, təmiz, nur üzlü, cənnət qoxulu şəhidlər. Vətən, torpaq uğrunda canından keçən və Vətəni bizlərə əmanət edib əbədi cənnətə köç edən, şəhidlər. Siz şəhadətinizlə əbədiyyətə qovuşanlarsınız.

Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçən, 27 illik ömrünü vətənə qurban verən şəhidimiz Həbibli Şəhriyar Vidadi oğlu kimi...

Şəhriyar Həbibi 19 yanvar 1993-cü ildə Lənkəran rayonunun Osaküçə kəndində anadan olub. Orta təhsilini kənd orta məktəbində alıb. 2010-cu ildə Osaküçə kənd orta məktəbini bitirib.

2010-2014-cü illərdə Bakı Dövlət Universitetiinin fizika fakültəsində təhsil alıb. 2016-cı ildə hərbi xidmətdə olduğu zaman Aprel döyüşlərində iştirak edib. Vətənin harayına səs verən Şəhriyar işlədiyi müəssisədə kollektivi ilə sağollaşaraq sentyabrın 28-də Vətən müharibəsinə yollanır. Onun döyüş yolu Cəbrayıldan başlayır. Vətən torpağımızın düşmən tapdağından azad olunmasında böyük şücaət göstərən igid Şəhriyar Zəngilan və Qubadlı istiqamətində gedən ən şiddətli döyüşlərdə iştirak edir, noyabrın 6-da böyük qələbəyə 4 gün qalmış Qubadlı uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhidlik zirvəsinə ucalır.

Ailəsi Şəhriyarın onlarla tez-tez əlaqə saxladığını bildirir. Sonuncu zəngində isə o qələbə gününə çox az qaldığını deyərək anası və bacısından narahat qaldığını bildirir.

Şəhriyar anasının tək ümid yeri, tək yanan çırağıydı.

Anası Təranə xanım minbir əzab-əziyyətlə böyütdüyü övladını vətən, torpaq yolunda gözünü belə qırpmadan qurban verdi. Onun çöhrəsindəki qürur, fərəh hissi də bunu təsdiqləyir. Çünki o, əbədi yaşayacaq olan, igid şəhid anasıdır.

Şəhriyar çox erkən yaşlarda ata yoxluğunu dadmışdı. Atasından sonra bütün ailənin yükü onun çiyinlərinə düşmüşdü.

**Anası Təranə xanım şəhid övladı haqqında danışarkən belə onunla necə qürur duyduğunu vurgulayır:**

- Şəhriyar mənə Tanrı tərəfindən bəxş edilən bişirilmiş bir çörək idi ki, mən onu Vətənə qurban verdim. O, Vətəni qarşısında vəzifəsini layiqincə yerinə yetirdi. Onunla mən ömrümün sonuna kimi fəxr edəcəm, o mənim başımı uca elədi. Şəhriyar çox prinsipial, fikrindən dönməyən insan idi. Həmişə deyərdi ki, vətəni qorumaq hamının Vətən qarşısında borcudu. Vətən məni çağırırsa, mən dayana bilmərəm, getməliyəm.

Hər səhər onu məktəbə yola salırdım. Küçənin tinində bir armud ağacı vardı. Şəhriyar hər səhər məktəbə gedəndə o ağacın altında ləngiyərdi. Bir gün onun arxasınca getdim və gördüm ki, yenə armud agacının altında sakitcə oturub göz yaşlarını silir. Yaxınlaşıb yanında əyləşdim. Sakitcə saçını oxşayıb:

**- Mama qurban, nolub, niyə ağlayırsan?**

*Şəhriyar başını qaldırıb ani olaraq üzümə baxdı:*

- Ana, bu məndən asılı deyil. Mən səndən ayrılanda mənə çox pis təsir edir. Ona görə hər səhər burda oturub ağlayıb sonra məktəbə gedirəm.

**- Mən onda anladım ki, Şəhriyar məni nə qədər çox istəyir.**

Şəhriyarın 27 illik ömür yolu çox keşməkeşli keçib. Çox əziyyətlərə qatlanıb. Atasından sonra evin yükünü o çəkib. O həmişə mənə deyərdi ki, ”sən narahat olma, sənə mən baxacam. Sənin oğlun var”.

Lənkəran rayonunun Osaküçə kəndində doğulan, orada boya-başa çatan Şəhriyar Həbiblinin məzarı önündə çıxış edərkən anasının məğrur siması gözümün önündən getmir. Ana başını dik tutur, vətənə layiq bir igid yetişdirdiyi üçün fərəhlənirdi.

*Ananın bu məğrurluğu şəhid məzarı ətrafında toplaşan insanları heyrətləndirirdi. Sanki, hamı deyirdi:*

**- Sag ol, ana! Sən qalib xalqın, qalib ordunun və Böyük Sərkərdənin yaşadığı ölkənin vətəndaşısan!**

**Ruhun şad olsun, Şəhidim!**



“Şəhriyar mənə Tanrı tərəfindən bəxş edilən bişirilmiş bir çörək idi ki, mən onu Vətənə verdim”

**Hüseynli Şəms**

# "Maaş az, qiymət baha"



**Razi Nurullayev:** “Pensiyalar, minimum əmək haqqı çox aşağıdır”

**Natiq Cəfərli:** “Hökumət qiymət artımına təsir edəcək qərarlar verir”

**Son dövlər Azərbaycanda bir çox məhsulların qiymətində bahalaşma müşahidə olunur. Bu da öz növbəsində əhalinin sosial rifahına mənfi təsir göstərir. Mağaza və ya marketlərdə, demək olar ki, eyni məhsul az qala hər ay bahalaşır.**

Məsələ Milli Məclisin plenar iclaslarında da müzakirəyə çıxarılır. Bəzi parlamentarilər ”SOS” siqnalı çalaraq bahalaşmanın qarşısının alınmasına dair təkliflər irəli sürüblər. **Elə bu günlərdə millət vəkili Razi Nurullayev mətbuata açıqlamasında bahalaşamaya yol açan səbəblər və nəticələri barədə danışıb. O qeyd edib ki, bahalaşmanın qarşısını almaq üçün idxal olunan malların müəyyən rüsumlardan azad edilməsi vacibdir:** ”Yaxud da rüsumlar azaldılmalıdır ki, mal-əmtəə Azərbaycana daha ucuz qiymətə gəlib çatsın. Ölkədə istehsal olunan məhsullara tətbiq olunan güzəştlər artırılsın, vergilər azaldılsın. Beləliklə, qiymətlər insanların cibinə uyğun olsun.

Bax, bu iki məsələnin ciddi şəkildə hökumət səviyyəsində araşdırılmasına ehtiyac var. Hələ ki bununla bağlı qərar qəbul olunmur”.

R.Nurullayev qeyd edib ki, bu gün Azərbaycanda vətəndaşların qazancları kifayət qədər deyil: ”Əmək haqları rəqabətli deyil. Pensiyalar, minimum əmək haqqı çox aşağıdır. Bütün bunlar da insanların ay ərzində ləyaqətli yaşayışına bəs etmir. Qaz və işığın qiymətlərinin artması da insanlara xeyli təsir edib. Müəyyən addımlar atılmalıdır ki, qiymətlərin azaldılmasına gətirib çıxarsın”.

**İqtisadçı-ekspert Natiq Cəfərli də ”Şərq”ə açıqlamasında Azərbaycanda bu ilin əvvəllərindən qiymət artımının sürətləndiyini qeyd edib: ”Ötən illə bu ili müqayisə etdikdə artımı aydın görə bilərik. Bu il qiymətlərdə 9-10 faiz artım, ümumi inflyasiyada isə 5 faiz artım müşahidə edilir”.**

N.Cəfərliyə görə bu qiymət artımının obyektiv səbəbləri araşdırılmalıdır: ”Obyektiv səbəb kimi deyə bilərəm ki, son zamanlarda dünyada da qiymət artımı müşahidə olunur. Bu, Azərbaycandan asılı səbəb deyil. Bahalaşma əsasən pandemiyanın başlaması ilə bağlıdır. Digər bir səbəb isə logistikanın bahalaşmasıdır. Bu da qiymətlərə öz təsirini göstərir”.

**Ekspert diqqətə çatdırıb ki, Azərbaycan hökumətindən asılı olan səbəblər də var:** ”Hökumət hələki bu sahədə lazımi addımlar atmır. Əksinə, qiymət artımına təsir edəcək qərarlar verir. Buna misal olaraq ”Dizel” yanacağının qiymətinin birbaşa olaraq 34 faiz artmasını göstərə bilərik. Məhsulun maya dəyəri artdıqca qiymətlər də artır. Məlum qərarı verərkən bilməli idilər ki, bu, qiymət artımına səbəb olacaq”.

**N.Cəfərli hesab edir ki, vergi və gömrük siyasətində də müəyyən boşluqlar var:** ”Çünki ölkədə istehsalı olmayan məhsullar çoxdur. 55-60 faiz ərzaq məhsulları xaricdən gətirilir. Bu, avtomatik olaraq qiymət artımına təsir göstərir. Bununla yanaşı, ənənəvi problemlər də var. Bunlara rəqabət mühitinin aşağı olması, bazarda şirkət sayının az olması və s. məsələləri aid etmək olar”.

**Çimnaz Şahlar**



## İrina Şeyk lüks mənzilini 8,2 milyona satır

O, mənzili ayda 20 min dollara kirayə verirdi

**Məşhur model İrina Şeyk Nyu-Yorkda yerləşən lüks mənzilini satışa çıxarıb. Axşam.az xəbər verir ki, model 8,2 milyon dollar qarşılığında onu yeni sahibinə təqdim edəcək.**

Yaşayış binasında yerləşən ikiotaqlı mənzilin şəxsi terası var. Ev döşəmədən tavana qədər pəncərələrlə əhatələnib. Mənzildən Hudson çayının mənzərəsini izləmək mümkündür.

Evin yerləşdiyi binada idman zalı, qapalı hovuz, spa, sauna, yoqa otağı və geniş yaşıllıq sahəsi var. Binada Ben Stiller və Jon Bon Covi kimi məşhurların da evləri yerləşir.

*Qeyd edək ki, İrina mənzili 2016-cı ildə 6 milyon dollara investisiya məqsədi ilə alıb. O, mənzili ayda 20 min dollara kirayə verirdi.*

**Elanlar**

Eyvazov Əli Xançoban oğluna Bakı Dövlət Universiteti (əvvəlki adı S.M.Kirov adına) tərəfindən 21 sentyabr 1977-ci ildə verilmiş Q-1 025042 №-li diplom itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikası Ali Attestasiya Komissiyasının 12 yanvar 1998-ci il (protokol № 02) Qərarı ilə verilmiş 01405 №-li Elmlər namizədi diplomu itdiyi üçün etibarsız sayılır.

# "O kadrları efirə vermək doğru deyil"

Nəmənd Rüstəmov: “Bir insanın xəstəliyindən başqa məqsədlər güdmək, qonaq olan məşhurları ağlatmaq, heç düzgün deyil. Kasad bazardır. Bu, optimal çarə deyil”





**ARB TV-də Zaur Kamalın aparıcılıq etdiyi ”Həmin Zaur” verilişində meyxanaçı Ağakərimlə bağlı reportaj efirə gedib. Ən ağrılı məqam odur ki, çəkiliş zamanı meyxanaçının ağrıları başlayıb və aparıcı həmin kadrları da efirə verib.**

Bu reportaj sosial şəbəkələrdə ciddi müzakirələrə səbəb olub. Əksəriyyət bunu aparıcının ”başqasının bədbəxtliyi üzərindən özünə xoşbəxtlik qurmaq” kimi xarakterizə edib. Bəzi izləyicilər qeyd edirlər ki, Kərim can hayında, Zaur reytinq axtarır.

Qeyd edək ki, meyxana ustadı Kərim Novruzov 2 il əvvəl insult keçirib. Beyinə qan sızması nəticəsində yatağa məhkum olub.

**Məsələyə münasibət bildirən Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin müəllimi və bir çox telelayihələrin redaktoru Nəmənd Rüstəmov ”Şərq”ə söyləyib ki, əslində bu hal etik olaraq arzuolunan deyil:** ”Etik qaydalar qorunmalıdır. Doğrudan da, əgər meyxanaçı Ağakərimin həyatı və səhhəti toplumu maraqlandırırsa, məsləhətdir ki, cəmiyyətdən saxlanılmasın.

Biz artıq onu görməliyik. Amma o formada deyil.

Bəlkə bu reportaja baxıb kimlərsə maddi və ya mənəvi yardım edəcək. Televiziya və ya başqa informasiya vasitəsilə bu tipli məsələlər işıqlandırılmalıdır.

Bu tamam başqa yanaşmadır. Burada nəzərdə tutulan yardım məsələsi deyil. Sadəcə olaraq reytinq qazanmaqdır. Çünki bu tipli məsələlər toplum üçün maraqlıdır. Yenə də deyirəm, göstərmək normaldır. Ancaq insanı xəstə halında, ağrı çəkdiyi yerdə efirə vermək doğru deyil.

Çox həssas məsələdir. Təmkinli davranmaq lazım idi. Amma indi bəzi verilişlərdə qalmaqal yaratmaq adi hala çevrilib. Bir insanın xəstəliyindən başqa məqsədlər güdmək, qonaq olan məşhurları ağlatmaq, heç düz deyil. Kasad bazardır. Bu, optimal çarə deyil”.

**Cəmilə Əzim**


**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

**-MÜHASİBAT** (2 AY)

**-Mobil telefonların təmiri** (3 ay)

**-KOMPYUTER** (1-3 AY)

**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)

**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)

**-Dizayn** (3-6ay)

**-Masaj** (3 ay)

**-Biçmə - Tikiş** (3 ay)

**-Məktəb Psixologiyası** (12 ay)

**Tel: (012) 489-08-84**

**Mob: (070) 241-28-67**

**www.az-baku.com**


## Üzərinə Xarıbülbül toxunmuş corablar...

Novella Cəfəroğlu burda hörmətsizlik görmür




**Son günlər sosial şəbəkələrdə üzərinə Xarıbülbül toxunmuş corabların istehsalı müzakirələrə səbəb olub.**

Məlumata görə, həmin corablar ”Corabb” brendi adı altında istehsal olunur. Lakin qələbəmizin rəmzi hesab edilən Xarıbülbülün corab üzərinə toxunması narazılıqla qarşılanıb.

Bəziləri bunu şəhidlərimizə hörmətsizlik əlaməti kimi dəyərləndiriblər və istehsal firmasını tənqid ediblər.

**Qınaq obyektinə çevrilən məsələ barədə ”Şərq”ə danışan hüquq müdafiəçisi, ictimai xadim Novella Cəfəroğlu bildirib ki, xalqımız atributlarla bağlı bəzən ifrata varırlar:** ”Amerikanın bayrağı harada istəsək var. Hətta bayraqlı alt paltarları da istehsal olunur. Bu o demək deyil ki, onlar Amerika bayrağını sevmirlər.

Ölkəmizdə corabların üzərinə Xarıbülbül nişanəsinin vurulması sevgidən irəli gəlir. Hər yerdə qələbəmizin rəmzi olsun.

Nişanəni aşağılamaq niyyəti ilə istehsal edilməsi inandırıcı gəlmir. Xarıbülbül vətənini, millətini sevən hər bir azərbaycanlının ürəyinin bir parçasıdır”.

**Sücayət Mehti**

## Miri Yusif əməliyyat olunub



**Xalq artisti Miri Yusif plastik əməliyyat olunub.**

Axşam.az-ın məlumatına görə, müğənni ötən həftə bıçaq altına yataraq qarın və kürək nahiyəsindəki piylərdən xilas olub. Miri Yusif ”Baku Medical Plaza”da baş tutan əməliyyat üçün plastik-cərrah Siruz Qoçxaniyə müraciət edib. Axşam.az məsələ ilə bağlı Miri Yusifin mövqeyini öyrənmək üçün prodüseri Emin Əfəndi ilə əlaqə saxlayıb. O isə müğənninin belə bir əməliyyat etdirmədiyini bildirib.

# Şagirdlərin dinlə bağlı bilgisi olmalıdır

Əks təqdirdə onları cəhalətə çəkmək asandır



**Azərbaycandakı məktəblərin birində şagirdlərin iştirakı ilə 12 imama həsr olunan klip çəkilib. Klipdə ilahiyyatçı-mərsiyəxan Seyid Peyman Boradigahi müəllim rolunda çıxış edib. Aşağı sinif şagirdləri hərəsi bir imamın adını sadalayıb. Onların adı yazılan kağızları göstəriblər.**

Videoda ifaçının azyaşlı oğlu Seyid Hüseyn də iştirak edib. Klipi sosial şəbəkə istifadəçiləri birmənalı qarşılamayıb. Təhsil müəssisəsində şagirdlərin elm öyrənməli olduqları halda dini musiqi səsləndirməsi müzakirə obyektinə çevrilib. Azyaşlıların dini təbliğat üçün istifadə olunması qınanılıb. Valideynlər Azərbaycanın dünyəvi dövlət olduğunu və şagirdlərin təhsil müəssisəsində dini klipə çəkilməsi, dini təbliğata alət olmasının yolverilməzliyini qeyd ediblər. Təhsil Nazirliyinin (TN) rəsmi səhifəsinə şikayətlər ünvanlayıblar.

Sözügedən video S.P.Boradigahinin səhifəsindən silinib. Faktla bağlı TN araşdırma aparır. Nəticəsi barədə məlumat veriləcək.

**Cəmiyyətin narazılığına səbəb olan mövzu barədə fikirlərini ”Şərq”ə dəyərləndirən sosioloq Əhməd Qəşəmoğlu bildirib ki, bir neçə il əvvəl Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin belə məsələlərlə bağlı münasibətini soruşub:** ”Fikir mübadiləsi zamanı aydın oldu ki, Komitənin hələ konkret bir mövqeyi, ona uyğun hazırlanmış platforması yoxdur. Əslində qeyri-mövcudluğun özü də bir çatışmazlıqdır. Ölkədəki orta təhsil müəssisələrində 17-18 yaşına qədər dindən məlumatsızlıq uşaqlarda boşluq yaradır. Onlar bu gün məktəbdə və ya məktəbdən kənarda da klipi çəkə bilərlər. Amma aşağı sinif şagirdləri dinlə bağlı elə bilgiləndirilməlidir ki, onları cəhalətə çəkə bilməsinlər”.

**Ə.Qəşəmoğlu vurğulayıb ki, hazırda Azərbaycan təhsil sistemində naqisliyin səbəbi platforma və ona uyğun kitabların yoxluğudur:**

”Həmçinin kitablara uyğun tədris prosesini aparacaq müəllimlər mövcud deyil. Kitabı yazmaqla kifayətlənmək olmaz. Müəllim gərək şagirdləri dinə həvəsləndirə, maraqlı informasiyalar verə bilsin. Nəticədə vakuum yaranmasın”.

Müsahibimiz diqqətə çatdırıb ki, bu, tənqid olunası məsələdir: ”Çünki indiki mövqedə orta məktəblərdə bu cür tədbirlər keçirilməsi ilə bağlı qərar qəbul edilməyib. Lakin klip çəkənləri günahlandırmıram. Ümumiyyətlə, Azərbaycan təhsil sistemi və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə əlaqəli kifayət qədər görüləcək işlər var”.

**Sücayət Mehti**


Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Aynurə Pənahqızı, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, Nailə Cabarova, İlahə İbrahimova, Fazilə Məmmədova

Qəzet “Şərq”in kompyuter mərkəzində yığılır, səhifələnir və “Azərbaycan” nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, “Azərbaycan” nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: “Kapitalbank”ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 2587



## Fulya Öztürkün vəziyyəti yaxşılaşıb

“Dua edən dillərinizə qurban olaram”

**Türkiyəli jurnalist və aparıcı Fulya Öztürk səhhətinin yaxşılaşmağa doğru getdiyini açıqlayıb.**

Bu barədə aparıcı instaqram səhifəsində məlumat yayıb. Koronavirusa yoluxduqdan sonra halı pisləşən və ağır vəziyyətdə xəstəxanaya yerləşdirilən aparıcı oradan foto paylaşıb.

”Bu gün daha yaxşıyam, minlərlə mesaj, yüzlərlə zəng gəldi. Allah hamınızdan razı olsun, həqiqətən çox duyğulandım, çox ağladım. Dua edən dillərinizə qurban olaram”, - aparıcı qeyd edib.

*F.Öztürk bildirib ki, nəfəsini toplayıb ”Fox TV”yə canlı müsahibə verəcək.*

## "Fəridənin iki min mahnısı"

Film ”Oskar” mükafatına namizədlər siyahısına salınıb



**Özbəkistan ssenaristi və rejissoru Elkin Tuyçiyevin ”Fəridənin iki min mahnısı” filmi ”Ən yaxşı xarici bədii film” nominasiyasında ”Oskar” mükafatına namizədlər siyahısına salınıb.** Özbəkistan mətbuatı xəbər verir ki, film 2020-ci ildə ”Özbəkkino” Agentliyinin sifarişi ilə ”Fox Music Cinema” kino şirkəti tərəfindən çəkilib.

Bildirilir ki, Özbəkistandan başqa öz filmlərini bu mükafata dünyanın 93 ölkəsi təqdim edib.

Film keçən əsrin əvvəllərində Türküstanda bir ailənin timsalında baş verən siyasi hadisələrdən bəhs edir.

”Fəridənin iki min mahnısı” filmi ötən ilin noyabrında Rusiya paytaxtında Müstəqil Dövlətlər Birliyini əhatə edən ”Moskva premyerası” festivalında ”Qran-Pri”ni alıb.



# Rahat və gəlirlidir...

## Azərbaycan da gəmi səyahətlərinə başlamalıdır

“Kruiz səyahət növünün bir çox üstünlükləri var. Bu, böyük gəlir gətirən sahədir”

**Məlahət Rzayeva**

**Azərbaycanla Rusiya arasında kruiz əlaqəsinin açılması böyük potensiala malikdir. Bunu Rusiyanın Həştərxan vilayətinin qubernatoru İqor Babuşkin deyib.**

”Fikrimizcə, Azərabycanla Rusiya, xüsusilə də Həştərxan vilayəti arasında kruiz əlaqəsinin mümkün açılışı böyük potensiala malikdir, belə ki, biz bu məsələni Xəzəryanı tərəfdaşlarımızla iki ildir müzakirə edirik” - deyə o, bildirib. Qubernator xatırladıb ki, ilk dəfə bu fikir Türkmənistanda birinci Xəzər beynəlxalq iqtisadi forumunda səsləndirilib. ”Bu kruiz əlaqəsinin açılışının flaqmanı ”Böyük Pyotr” ”çay-dəniz” tipli teploxod ola bilər”, - İ.Babuşkin deyib.

Rusiya ilə kruiz əlaqələrinə Xəzəryanı dövlətləri də cəlb etmək olar, o zaman marşrut da genişlənər. Qazaxıstan, Türkmənistan, İran da bu əlaqələrə qoşulsa, daha geniş imkanlar yaranacaq

**İqtisadçı Fuad İbrahimov ”Şərq”ə açıqlamasında ”kruiz”i turizmdə ən əlverişli səyahət növü adlandırdı:**

- Təsəvvür edin ki, bir gəmi ilə bəlli bir qiymətə 6-7 ölkəyə səfər edilir. Mən indiyədək 15 dəfə açıq okeanda səyahət etmişəm. Və sizə deyim ki, gəmi səyahəti digər heç bir səyahət növü ilə müqayisəyəgəlməz dərəcədə gözəldir, rahatdır. Həm də sərfəlidir. Gəmi səyahəti barədə turizm sektorunda çalışanlarla dəfələrlə söhbətimiz olub. Amma nədənsə, bizdə hələ də bu səyahət növü reallaşmır. Halbuki, bunun üçün Rusiya ilə yanaşı Azərbaycanın da imkanları var. Düzdür, Rusiyanın imkanları daha genişdir. Hələ sovet vaxtında Volqa çayı boyunca gəmi səyahətləri təşkil olunurdu. Kruiz səyahət növünün bir çox üstünlükləri var. Bu, böyük gəlir gətirən sahədir. Rusiya ilə Azərbaycan arasında kruiz əlaqəsinin açılması - yəni gəmi ilə səyahət marşrutu açılsa, ilk növbədə bu, bölgələrin inkişafına böyük təkan verəcək. Kruiz 3 istiqamətdə təşkil oluna bilər; Şimal bölgəsi - Quba, Qusar, Xaçmaz, mərkəzi bölgə - Sumqayıt, Bakı, Salyan, Neftçala və cənub bölgəsi Lənkəran, Masallı. Təsəvvür edin ki, gəmi səhər saatlarında limana yan alır və bir dəfəyə əraziyə 300-500 turist axın edir. Bu, iaşə obyektlərini də dirçəldəcək, muzeyləri, suvenir satışını da. Turistlər nəsə almaq istəyir, hədiyyə, suvenir həvəsində olurlar. Tarixi yerləri gəzirlər. Ölkəmizi, tariximizi tanıdırıq, həm də gəlir əldə edirik. Görün, ölkəyə nə qədər kapital axını baş verəcək. Həmçinin kruiz əlaqələri üçün limanlar da uyğun olmalıdır. Bu da o deməkdir ki, gəmiçilik də inkişaf edəcək, limanlar da müasir standartlara uyğunlaşacaq.



***F.İbrahimov qeyd etdi ki, kruiz səyahət növünün qiymətləri baha olmamalıdır:***

- Onu deyim ki, nəhəng laynerlərin Xəzər dənizində üzmək imkanı yoxdur. Məsələn, dünya dənizlərində, okeanlarda üzən laynerlərlə kruiz səyahətinin qiyməti maksimum 900-1200 avro arasındadır. Amma bu laynerlərdə gün ərzində 3 dəfə yemək verilir, hər gün də bir Avropa şəhərində dayanır. Bir gün Amsterdam, bir gün Kopenhagen, bir gün Oslo... Rusiya ilə kruiz əlaqələrinə Xəzəryanı dövlətləri də cəlb etmək olar, o zaman marşrut da genişlənər. Qazaxıstan, Türkmənistan, İran da bu əlaqələrə qoşulsa, daha geniş imkanlar yaranacaq. Amma hələlik biz Rusiya ilə kruiz əlaqələrinin tezliklə açılmasına çalışmalıyıq. Çünki bu, Azərbaycan üçün sərfəlidir. Qiymətlərsə 500-600 manatı aşmamalıdır. Qiymətlər baha olsa, turist sayı da az olacaq.



## Hərəkətləri bəyənildi

Çobanlar Anıtqəbirdəki əsgəri növbə dəyişikliyini təqlid edirlər



**Türkiyənin Şirnak bölgəsində çobanlıq edən əmiuşaqları 17 yaşlı Ramazan və 16 yaşlı Serhat yaxınlıqdakı (Beytüşşebap əyaləti, Ayvalıq kəndi) hərbi bazanın müşahidə kameralarına düşüb.**

**Gənc çobanların davranışı hərbçiləri heyrətləndirib. ”Şərq” ”Milliyet.com”a istinadən xəbər verir ki, gənclər Atatürkün mavzoleyində saygı duruşunda dayanan əsgərlərin növbə dəyişikliyini təqlid edirmişlər. Gənclərin eynilə Anıtqəbirdəki əsgərlər kimi hərəkət etməsini əks etdirən video sosial şəbəkədə yayılıb və çox bəyənilib. Videoda görünür ki, gənclər Anıtqəbirdə növbə çəkən türk əsgəri kimi addımlayır, çomaqlarını da çiyinlərində tüfəng əvəzi daşıyırlar. Əmiuşaqlarınınsa müşahidə kamerası tərəfindən qeydə alındıqlarından xəbərləri yoxmuş. Bunu sonradan öyrəndiklərini deyən Ramazan Ölməz DHA müxbirinə ”televiziyada Anıtqəbirdə əsgərlərin necə növbə dəyişdiyini bir neçə dəfə izləmişik. Bu, çox xoşumuza gəlirdi. Biz də eynisini etmək istədik. Əmim oğlu ilə dağda mal-qara növbəsində olduğumuz zaman bu hərəkətləri tez-tez təkrarlayırıq. Bu dəfə isə kameralara düşmüşük, xəbərimiz olmayıb”, deyib. Ramazan deyib ki, arzusu Ankaraya getmək və Anıtqəbiri ziyarət etmək, əsgərlərin növbə dəyişikliyini canlı izləmək və bir də Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğanla görüşməkdir. Əmiuşaqları məktəb xərclərini ödəmək üçün dərsdən sonra və həftə sonları çobanlıq edir. Ailələrinin sosial vəziyyəti ağırdır. Uşaqlar da atalarına yük olmamaq üçün pul qazanmağa çalışırlar. Serhat Ölməz də məktəb xərclərini ödəmək üçün çobanlıq etdiklərini deyib: ”Kameraya düşdüyümüzü kənddə dostlarımız xəbər verdi. Baxdıq, çox yaxşı addımlayırıq. Bunu bir neçə dəfə məşq etmişdik. Əsgərlərin növbə dəyişikliyini çox bəyənirik. Onlar kimi olmaq istədik”, söyləyib. Beytüşşebap Gənclər və idman başqanı Kənan Adıyaman Ramazan və Serhatın örnək davranış nümayiş etdirdiyini söyləyib və yaxın zamanda onların Ankaraya səfər və Anıtqəbiri ziyarət arzularını gerçəkləşdirəcəyini vəd edib.**

**Məlahət**



## Saatlarla saçlarını yuyurlar

Bu kənddə qarşılaşdığın hər kəslə mütləq salamlaşmalısan

**Dünyanın fərqli məkanlarında çox maraqlı adət-ənənələriylə seçilən müxtəlif etnik qruplar yaşayır. Onlardan biri və bəlkə də ən maraqlısı Çinin cənubunda yaşayan Qızıl Yao etnik qrupudur.**

”Şərq” xarici mediaya istinadən Qızıl Yao etnosu barədə məlumat verir. Qızıl Yao etnik qrupuna daxil olanlar ağır həyat tərzləri ilə diqqət çəkir. Etnosun yaşadığı kəndə səyahət etmək uzun illər, hətta bir əsr boyunca mümkünsüz olub. Bu kənd düyü plantasiyalarının arasında yerləşir. Çin hökuməti nəhayət 2002-ci ildə bölgədə ”turizm islahatları” proqramının icrasına başladı. Və Qızıl Yao xalqının məskunlaşdığı Huangluo kəndi də bundan sonra tanınmağa və məşhurlaşmağa başladı. Kəndə turistlər də yol aldı. Çin hökuməti kəndə turistlərin rahat səyahəti üçün hər cür imkanlar yaradıb artıq. Kəndə səyahət edənləri heyrətləndirən mənzərələrdən biri də kənd qadınlarının çay kənarında saçlarını yuması ritualıdır. Niyə ritual? Çünki kənd qadınlarının saçları çox, yəni, lap çox uzundur. Buna görə də saçların yuyulması çətin bir işdir və saatlarla vaxt aparır. Qadınların saçlarının uzunluğu orta ölçüylə 1,7 metr - 2 metrə yaxındır. Bu saçları yumaq əlbəttə çox çətin və üzücü bir işdir. Amma kənd qadınları bəlli günlərdə dəstə-dəstə çay kənarına toplaşır və saçların yuyulması prosesi başlayır. Huangluo kəndi düyü tarlaları və əsrarəngiz təbiəti ilə də məşhurlaşıb. Qızıl Yao etnik qrupunun insanları həm də uzunömürlüdür. Qidalanmada daha çox meyvə və tərəvəzə üstünlük verir, sağlam həyat tərzi keçirirlər. Kənd əhalisinin 100 ildən çox ömür sürdüyü məlumdur. Uzunömürlülüyün bir səbəbinin də içməli suyun təmiz olması göstərilir. Bu kənddə qarşılaşdığın hər kəslə mütləq salamlaşmalısan. Söhbət edərkən kobud söz işlətməməli, yanlarında əyləşərkən oturuş tərzinə diqqət etməlisiniz. Eyni saygılı davranış yemək zamanı da mütləqdir. Süfrə başında kim daha yaşlıdırsa, yeməyə birinci o əl uzatmalıdır. Yeməklər də birinci yaşlı insan tərəfə qoyulur. Kəndin kişi və qadınları digər kəndlərin əhalisi ilə qohum olmur. Yalnız kənd camaatı bir-biriylə evlənir. Kişilər evləndikdən sonra qadının evində yaşayır. Valideynlər övladlarının evlilik qərarına müdaxilə etmirlər. Qadınların evli, yoxsa subay olduğu isə saç stilindən bilinir. Subay xanımlar bir baş örtüsündən istifadə edir, evli xanımlar isə saçlarını ön tərəfdən yumurlayıb qısqac ilə sıxır. 1980-ci ilədək əgər bir kişi subay gənc qızın saçını görərdisə, o qızın ailəsində 3 il müddətinə xidmət etməliydi. Amma bu adətə artıq riayət edilmir. Kəndə turistlər ayaq açandan bir sıra adətlər qüvvədən düşüb. Məsələn, qadınlar saçların yuyulma prosesini öyrənmək istəyənlərə təlim edir. Qəsəbə sakinləri mahnı oxuyur, rəqs edirlər. Mahnı oxunması və rəqslər qarşılığında xarici izləyicilərdən pul alınır. Bu vəsait isə kəndin ehtiyacları üçün sərf olunur. Qadınlar da turistlərə düyü həlimi satır. Saçlarının Qızıl Yao qadınlarınınkı kimi uzun və parlaq olmasını istəyənlərə. Qızıl Yao qadınları saçlarını məhz düyü həlimi ilə yuyur. Hansı yaşda olursa-olsunlar, qara və parlaq qalan saçlarını heç vaxt kəsdirmirlər.



Qızıl Yao qadınları saçlarını məhz düyü həlimi ilə yuyur

**Məlahət Rzayeva**



## Üzün qızarması nəyin əlamətidir?

**Üzümüzün qızarma səbəbləri yəqin ki, sizin üçün də maraqlıdır. Bu, dəridəki incə damarlara qan axınının artması ilə əlaqədardır.**

”Şərq” xarici mediaya istinadən xəbər verir ki, buna fiziki gərginlik, yüksək təzyiq, utanma, qəzəb də səbəb ola bilər. Çoxlarının fikrincə, üz qızaran zaman baş, yanaqlar və qulaqlardan sanki alov çıxır. Sonra tərləmə başlayır və ürək döyüntüsü sürətlənir. Sakitləşdirici və tənəffüs məşqləri gərginliyi aradan qaldıraraq bu qızartının qarşısını ala bilir.

**Günəş Mərd**

## Koronavirus heyvanlara keçəcək

Pandemiya sona çatır



**İnsanlar arasında koronavirus pandemiyası sona çatır. O, heyvanları axtarır.**

Bu barədə rusiyalı immunoloq, xüsusi təhlükəli infeksiyalar üzrə mütəxəssis Vladislav Jemçukov deyib.

Onun sözlərinə görə, əgər onu öldürməyəcək heyvan tapsa, elə orada da qalacaq və yeni infeksiya ocağı yaranacaq. (ucnoqta.az)

İmmunoloq qeyd edir ki, koronavirus dünya üzrə əhalinin 70%-dən çoxu peyvənd olunduqdan sonra geri çəkiləcək.: ”Əhali arasında peyvəndlənənlər 70-80 faiz olduqda, virus yeni ”sığınacaq” tapacaq”.